QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 162 (5634) 30 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri bütün sahələrdə daim inkişaf edir

## *Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

5

Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti Xaçmazda keçirilmiş əməliyyatla bağlı birgə məlumat yayıblar



8

Siyasi parçalanma: Ermənistanın daxili reallığının bir aspekti



7

XİN-dən Bilzeryanın Qarabağa səfərinə münasibət



# Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri bütün sahələrdə daim inkişaf edir

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Binəli Yıldırıma Türkiyə Böyük Millət Məclisinin sədri vəzifəsinə seçilməsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev Binəli Yıldırımın Baş nazir və digər vəzifələrdə çalışdığı dövrlərdə Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin möhkəmlənməsinə, Bakı-Tbilisi-Qars layihəsinin reallaşması işinə öz töhfəsini verdiyini vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi birgə qlobal layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan, TANAP, Bakı-Tbilisi-Qars layihələrinin böyük önəm daşıdığını qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, Türkiyə və Azərbaycan bütün dövrlərdə bir-birinə dəstək olub və bu gün də bir yerdədirlər. Prezident İlham Əliyev Binəli Yıldırımın Türkiyə Böyük Millət Məclisinin sədri vəzifəsində çalışdığı dövrdə də parlamentlərarası əlaqələrimizin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, ona bu vəzifədə uğurlar arzuladı.

Xoş sözlərə və təbriklərə görə minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Binəli Yıldırım Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Türkiyə Böyük Millət Məclisinin sədri kimi ilk rəsmi səfərini Azərbaycana həyata keçirməsindən məmnunluğunu bildirən Binəli Yıldırım qeyd etdi ki, onun Azərbaycanda birinci dəfə 15 il bundan əvvəl olduğu dövrlə müqayisədə ölkəmiz çox böyük inkişafa nail olub və Azərbaycanın tərəqqisi Türkiyədə böyük sevinc hissi doğurur.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamında dəyişiklik edilməsi Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Zərdab rayonunun Ucar-Zərdab-Ağcabədi (21 km)-Birinci Alıcanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Azərbaycan ilə Gürcüstan arasında əlaqələr zəngin tarixə malikdir

## Prezident İlham Əliyev Gürcüstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Gürcüstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradzenin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Zurab Pataradze fəxri qarovul dəstəsinin qarşısından keçdi.***

Zurab Pataradze etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin zəngin tarixə malik olduğunu vurğulayaraq, dostluq münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstanın fəal əməkdaşlığı nəticəsində həyata keçirilən bir sıra mühüm qlobal layihələrin təkcə bölgə üçün deyil, daha geniş məkanda böyük önəm daşıdığını dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirərək, səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.

Zurab Pataradze qeyd etdi ki, o, dost Azərbaycana səfir vəzifəsinə təyin olunmasından şərəf hissi duyur. Azərbaycanın Gürcüstan üçün mühüm strateji tərəfdaş olduğunu vurğulayan Zurab Pataradze iki ölkə arasında qardaşlıq münasibətlərinin daim möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Səfir fəaliyyəti dövründə siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməcəyini bildirdi.

# Almaniya Azərbaycanı Cənubi Qafqazda əsas siyasi-iqtisadi tərəfdaş sayır

## *Kansler Angela Merkelin səfərinin nəticələri bunu bir daha təsdiqlədi*



***Bu gün Azərbaycanın xarici siyasətində Avropa dövlətləri ilə münasibətlərin inkişafı prioritet istiqamətlərdəndir. Məhz bu səbəbdən də ölkəmiz siyasi-iqtisadi və strateji mövqeyinə görə daim Avropanın diqqətini cəlb edib. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın xarici siyasətində Almaniya ilə münasibətlərin xüsusi yer tutmasının nəticəsidir ki, Azərbaycan Avropada ilk səfirliyini bu ölkədə açıb. Almaniya da Azərbaycanın Cənubi Qafqazda əsas tərəfdaşı hesab etməsinin, məntiqi nəticəsi olaraq, iki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə geniş əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin indiyədək Almaniyaya etdiyi işgüzar və rəsmi, o cümlədən, Almaniya rəsmilərinin ölkəmizə səfərləri ikitərəfli əlaqələrin inkişaf etdiyini, hər iki dövlətin əməkdaşlıq tellərinin daha da dərinləşməsinə böyük maraq göstərdiyini təsdiqləyir.***

Deyilənlərin bariz nümunəsi olaraq Almaniya Kansleri Angela Merkelin avqustun 25-də respublikamıza ilk səfərinin yekunları, belə bir qənaətə gəlməyi sübut edir.





### "Bu səfər nəticəsində Almaniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək və bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir"

Azərbaycan Prezidenti İlham Əliyev Angela Merkellə görüşü zamanı qeyd etmişdir ki, bu tarixi səfər gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır: "Bu, Almaniya Kanslerinin Azərbaycana ilk səfəridir, bu, tarixi bir səfərdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər nəticəsində Almaniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək və bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir. Bu gün biz gündəlikdə duran bir çox məsələləri çox açıq, konstruktiv şəkildə müzakirə etdik. Əminəm ki, aparılan danışıqlar, keçirilmiş fikir mübadiləsi gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır".

Qeyd emək lazımdır ki, Prezident İlham Əliyevlə danışıqlarda siyasi-iqtisadi əlaqələr, ticarət münasibətləri, regional təhlükəsizlik, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər müzakirə edildi. Eyni zamanda, bu faktı da vurğulamaq lazımdır ki, Almaniya yüksək iqtisadi göstəriciyə malik olan ölkə olmaqla yanaşı, Avropa İttifaqında əsas söz sahibidir və təbii ki, Almaniya ilə əlaqələrin inkişafı Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir və bu ölkə 1992-ci ilin yanvarında Azərbaycanın müstəqilliyini tanımaqla yanaşı, həmin ilin sentyabrında da Bakıda səfirliyini açıb.

Digər əsas amil isə, Almaniyanın alternativ enerji mənbələrinə maraq göstərməsidir. Təsadüfi deyil ki, Angela Merkel Bakıda mətbuat konfransında Azərbaycanın Avropa İttifaqının enerji şaxələndirilməsində güclü bir amil olduğunu deməsi deyilənlərin təsdiqidir. Angela Merkel keçirilən mətbuat konfransında da vurğulayıb ki, "Cənub Qaz Dəhlizi"nin açılması Avropanın enerji təminatında böyük rol oynayacaq. Kansler, həmçinin, Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasını da yüksək qiymətləndirərək qeyd edib ki, bu, Avropa ilə ticarət əlaqələrini genişləndirəcək, mübadilə aparılmasını yaxşılaşdıracaq.

Mətbuat konfransında A.Merkel Dağlıq Qarabağ münaqişəsinin həllində Almaniyanın da iştirakını arzuladıqlarını bəyan edib. "Biz Dağlıq Qarabağ məsələsi ilə bağlı Minsk Qrupunda fəaliyyətimizi davam etdirəcəyik. Mən bu dəfə hər iki ölkəyə səfər etdim və bununla da, məsələnin təcili və necə həll olunması barədə bir daha aydın təsəvvür yarandı. Biz səylərimizi artıracağıq və bütün tərəflər də iştirak etməlidir ki, bir həll yolu tapılsın və biz buna töhfəmizi verəcəyik"-deməsi Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə ədalətli həlli prosesini arzulaması istəyini göstərdi. Yəni xanım kansler, onu bir daha demək istəyir ki, sülh və danışıqlar yolu ilə münaqişənin həlli limiti hələ tam tükənməyib və bunlar söz olaraq qalmayacaq, Qarabağ münaqişəsinin həlli prosesində öz müsbət rolunu oynayacaq.

Bu gün tam əminliklə vurğulamaq lazımdır ki, Azərbaycan zor, təhdid, təzyiq, diktə dilini sevmir və qəbul etmir. Yəni hər kəslə bərabərhüquqlu münasibətlərin qurulması tərəfdarı kimi çıxış edir və öz mövqeyində də israrlıdır. Bu baxımdan da, Azərbaycan hər kəslə səmimi, açıq əməkdaşlıqda maraqlıdır və qarşı tərəfdən də bunları gözləyir.

Ümumiyyətlə, bu tarixi səfər ikitərəfli münasibətlərdə yeni mərhələ yaradacaq və bu, Azərbaycanın maraqlarına uyğundur.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 avqust 2018-ci il

# Azərbaycanın Birinci Xanımı humanist, xeyriyyəçi layihələrilə dünya miqyasında tanınır







İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Mehriban xanım dostluğun, əməkdaşlığın inkişafı naminə diqqət yetirdiyi sahələrin hər biri Onun fəaliyyətinin yüksək səviyyədə olduğundan xəbər verir. Humanist, xeyriyyəçi layihələrilə dünya miqyasında tanınan və birmənalı olaraq belə aksiyaların təşəbbüskarı kimi nüfuz qazanan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə əks-səda doğurub. Bu günlərdə Pakistan mətbuatında yer alan məqalədə də Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın fəaliyyətinə geniş yer verilib. Pakistanın tanınmış "Daily Times" qəzetində və qəzetin internet saytında jurnalist Afşan Malikin "Mehriban Əliyeva: qəhrəman müsəlman lider" sərlövhəli məqaləsində Mehriban xanım Əliyevanın Qərb və Şərq mədəniyyətinin möhtəşəm sintezinin simvolu kimi islam dünyasının qadınları üçün ilham mənbəyi olduğu vurğulanıb. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrə nəzər salan müəllif bunun bütün sahələri əhatə etdiyini oxucuların diqqətinə çatdırır.

Millət və dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Liderin ali ideallarını özündə ehtiva edir. Azərbaycanın Birinci Xanımının fəaliyyəti aşılmaz sayılan sərhədləri belə adlayır.

Müəllif ölkələr arasında qarşılıqlı əlaqələrin yüksək olduğunu qeyd edərək, Azərbaycanla Pakistan arasında dostluq münasibətlərinin daha da dərinləşməsində Heydər Əliyev Fondunun müstəsna rolunu diqqətə çatdırır. Məqalədə dünyanın bir çox ölkələrində Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə respublikamızda, eləcə də, Pakistanda, xarici ölkələrdə həyata keçirilən təhsil və səhiyyə sahələrində layihələr barədə ətraflı məlumat verilir. Mehriban xanım Əliyeva çıxışlarının birində vurğulamışdır ki, Heydər Əliyev Fondu tərəfindən bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunur: "Çox fərəhlənirik ki, birinci layihəmiz - Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır".

Müəllif də Heydər Əliyev Fondunun 2005-ci ildə Pakistanda baş verən dağıdıcı zəlzələdən dərhal sonra bu ölkədə xeyriyyəçilik fəaliyyətlərinə başladığını qələmə alıb. Mehriban Əliyevanın təşəbbüsü ilə zəlzələdən ən çox dağılan bölgələrdən olan Müzəffərabadın Rara bölgəsində 500 şagirdlik qızlar məktəbi tikildiyini oxucuların diqqətinə çatdırır.

Xatırladaq ki, Heydər Əliyev Fondu tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və Hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılmış, Peşavər şəhərində "Akbar Care" serebral iflic institutunda imkansızlar üçün pulsuz müayinə təşkil edilmiş, Xayber Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadın və uşaq xəstəxanasında açıq ürək əməliyyatları aparılmış, Hamza Fondu (Peşavər) üçün müasir qanköçürmə avadanlığı, laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım maşını və iki min qanköçürmə paketi alınmış, Xayber Göz Fondunun yeni binasının tikintisi üçün maddi yardım göstərilib.

Müəllif fondun Pakistanda həyata keçirdiyi layihələrin Azərbaycan və Pakistan xalqlarının dostluq və qardaşlıq münasibətlərinin inkişafına töhfə verdiyini, Pakistan dövləti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələri səmimi münasibət və möhkəm təməllər üzərində qurulub. Məqalədə vurğulanıb ki, xanım Mehriban Əliyeva tərəfindən icra olunan sosial və humanitar layihələr onun Pakistana dair səmimi münasibətinin təzahürüdür. O da, qeyd olunur ki, həyatın müxtəlif sahələrindəki roluna və fəaliyyətinə görə, O, Fransanın "Şərəf Legionu ordeni, Küveytin "Fəxri diplom"u, Polşanın "Xidmətlər görə" ordeni və Serbiyanın "Sreten" ordeni ilə təltif edilib. Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeninin təqdim edilməsi də, məhz gördüyü işlərə verilən qiymətdir.

Həyata keçirilən xeyirxah işlər Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətin, habelə, bu gün Vətən və xalq naminə aparılan məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürü olmaqla yanaşı, həm də fondun cəmiyyətdə və xaricdə artan nüfuzunun ifadəsidir.

Mehriban Əliyeva gördüyü işlərlə Azərbaycan qadınının xeyriyyəçi, mərhəmətli, ictimai-siyasi fəaliyyətdə olan bir insan olduğunu dünya ictimaiyyətinə bir daha sübut edir. O, həm gözəl ana, həm gözəl ictimai-siyasi xadim, həm də ləyaqətli bir Azərbaycan Qadınıdır. Ölkəmizdən kənarda apardığı xeyriyyəçilik işləri Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu, dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə Azərbaycan qadınının istedadlı mütəxəssis kimi fəallıq göstərdiyini nümayiş etdirir.

Heydər Əliyev Fondunun reallaşdırdıqları möhtəşəm işlər Azərbaycanın Birinci Xanımının daxili dünyasının və çoxşaxəli fəaliyyətinin aynasıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın Baş naziri Türkiyə Böyük Millət Məclisinin sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov avqustun 29-da Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, yüksək səviyyəli qarşılıqlı səfərlərin iki qardaş ölkə arasındakı münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Binəli Yıldırımı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə təbrik edən Baş nazir Novruz Məmmədov onun parlament sədri kimi ilk səfərini Azərbaycana etməsinin yüksək qiymətləndirildiyini bildirib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Baş nazir deyib ki, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər ən yüksək zirvədədir. Ölkələrimiz bütün sahələrdə əməkdaşlıq edir, bütün məsələlərdə eyni mövqedən çıxış edir, beynəlxalq təşkilatlarda bir-birinə daim dəstək verir.

Novruz Məmmədov qeyd edib ki, Azərbaycan və Türkiyə prezidentlərinin sıx dostluq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır. Birlikdə reallaşdırılan qlobal layihələrin əhəmiyyətindən bəhs edən Baş nazir qardaş ölkələrimizin qanunverici orqanları arasındakı əlaqələrin də məmnunluq doğurduğunu ifadə edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş nazir Novruz Məmmədov deyib ki, Türkiyə bu məsələnin həllində də daim Azərbaycanın yanındadır və ölkəmizə böyük dəstək göstərir.

Novruz Məmmədovu Azərbaycanın Baş naziri təyin olunması münasibətilə təbrik edən Türkiyə parlamentinin sədri Binəli Yıldırım hər iki dövlətin yeni vəzifəyə başlayan rəsmilərinin ilk səfərlərini qardaş ölkəyə etməsinin ənənəyə çevrildiyini bildirib. Böyük Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamını xatırladan Binəli Yıldırım hər zaman olduğu kimi, TBMM-nin sədri vəzifəsində də hər iki ölkənin mənafeyinin müdafiəsi istiqamətində fəaliyyətini davam etdirəcəyini vurğulayıb.

Böyük Millət Məclisinin sədri Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiyini və bu dəstəyin davamlı olacağını diqqətə çatdırıb.

# Hikmət Babaoğlu: "Ermənistanda böhranın səbəbi torpaqlarımızı işğal etməsidir"

***"Hazırda işğalçı Ermənistanda bir hakimiyyət böhranı müşahidə edilir. Ancaq bir qədər daha dərindən analiz etsək, belə bir qənaət ifadə etmək mümkündür ki, bu, əslində hakimiyyət böhranı deyil, dövlətçilik böhranıdır". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, düşmən ölkədə baş verən böhranın əsas səbəbi Ermənistanın işğalçılıq siyasəti həyata keçirərək Azərbaycan torpaqlarını öz himayədarlarının köməyi ilə işğal etməsidir.***



Onun sözlərinə görə, Ermənistanı idarə edən imperativ güc mərkəzi ilə münasibətlər korlanan kimi bəlli olur ki, nə Ermənistan dövlət deyil, nə də onun müstəqil siyasi sistemi və ordusu var: "Hazırda bu ölkədə baş verən proseslər də dediklərimizin əyani təzahürüdür. Paşinyan siyasi sistemi, dövlətçilik ənənəsi olmayan bir toplumu idarə etməyə çalışır. Ancaq bunun mümkün olmadığını gördükdə isə korrupsiyaya qarşı mübarizə, sosial problemlərin həlli adı altında yeni bir diktatura qurmağa cəhd edir. Çünki onu hakimiyyətə gətirən və buna bənzər problemlərin həlli ilə bağlı natamam topluma verdiyi vədlər olub. Ancaq korrupsiya və sosial problemləri o vaxt həll etmək mümkündür ki, bunu təmin edəcək iqtisadi resurslar və hüquqi sistem olsun. Bunların heç biri isə Ermənistanda yoxdur. Deməli, problemi də həll etmək mümkün deyil. Bu zaman ən yaxşı həll yolu manipulyasiya edərək bir həll illüziyası yaratmaqdır ki, Paşinyan da hazırda bunu edir".

H.Babaoğlu vurğulayıb ki, Paşinyan həll illüziyası yaratmaq əvəzinə işğalçılıq siyasətinə son qoymaq üçün real addımlar atmalıdır: "Yalnız o zaman kommunikasiyalar açıla, ölkədə iqtisadi münasibətlər sistemi formalaşar və problemi həll etmək üçün perspektivlər yarana bilər".

Paşinyanın "məni Qarabağ erməniləri seçməyiblər" fikrinə gəldikdə deputat qeyd edib ki, bu, daha çox daxili auditoriyada özünün Ermənistan erməniləri içərisində reytinqini yüksək saxlamaq məqsədinə hesablanıb: "Çünki Ermənistanda daima Qarabağ ermənilərinə yuxarıdan aşağı baxış olub və bu gün də belədir. Üstəlik "Qarabağ klanı" hakimiyyətdə olan zaman Ermənistanı hərbi - siyasi və iqtisadi avantüraya sürükləyib və Ermənistan müstəqilliyini defakto itirib. Ona görə də Qarabağ ermənilərinə münasibətdə Paşinyan kimi düşünənlərin sayı həddindən artıq çoxdur". Baş redaktor əlavə edib ki, Paşinyanın nümayiş etdirdiyi mövqe həm onun, həm də Ermənistan ermənilərinin bu ölkənin Qarabağ probleminin girovuna çevrilməsindən bezmələri kimi də başa düşülə bilər: "Yaxşı olar ki, Paşinyan Azərbaycanın ünvanına sərt ritorikanı yığışdırsın və problemi həll etməyə çalışıb, işğal faktına son qoysun. Bu region ölkələrinin, eləcə də ermənilərin maraqlarına uyğun olardı".

# Bəhruz Quliyev: "Azərbaycan-Türkiyə münasibətləri yeni regional layihələri reallaşdıracaq"



***"Binəli Yıldırımın Türkiyənin Böyük Millət Məclisinin sədri qismində ilk xarici səfərini Azərbaycana etməsi bir daha təsdiq edir ki, ölkələrimizin əsasında dayanan əsas ali məqam qardaşlıq münasibətləridir". Bu fikirləri "Olaylar"a siyasi ekspert Bəhruz Quliyev Türkiyə BMM-nin sədri Binəli Yıldırımın Azərbaycana səfərini şərh edərkən bildirib.***

Onun sözlərinə görə, artıq bu kimi səfərlər ənənə şəklini alıb və bu ənənənin əsası məhz dövlət başçılarımız tərəfindən qoyulub: "İstər Azərbaycanda, istərsə də qardaş Türkiyədə bu ənənəyə böyük önəm verilir. Çünki ölkələrimiz bütün məsələlərdə bir-birinin yanındadır. Eyni zamanda, bu dərin əlaqələr tarixi əsaslara söykənir. Azərbaycan-Türkiyə əməkdaşlığı siyasi, iqtisadi, hərbi, mədəni və s. sahələrdə çox yüksək səviyyədə qurulub, davamlı inkişaf yolunu tutub".

"Qardaş Türkiyə Cümhuriyyəti Azərbaycanın təşəbbüskar olaraq irəli sürdüyü bütün iqtisadi layihələrdə əsas iştirakçı olaraq çıxış edir", deyə qeyd edən Bəhruz Quliyev görə, burada "Bakı-Tbilisi-Ceyhan, "Bakı -Tbilisi-Qars", "Bakı-Tbilisi-Ərzurum", TANAP, "Cənub Qaz Dəhlizi" və s. çoxsaylı reallaşdırılmış layihələri göstərməklə yanaşı, qarşıda dayanan digər perspektivli layihələr də göstərilə bilər: "Eyni zamanda, regionun təhlükəsizliyi, həmçinin, hərbi-siyasi əməkdaşlıq baxımından bir sıra mühüm addımlar reallaşdırılıb ki, bütün bu faktorlar hər iki ölkənin - həm Azərbaycanın, həm də Türkiyənin birgə mənafelərinə xidmət edir. Yəni, bütün sahələrdə bizim əməkdaşlığımızın uğurlu məntiqlərə əsaslanan münbit nəticələri var. Söz yox ki, bu nəticələr qardaş xalqlarımız, ölkələrimiz üçün çox mühümdür. Əbəs deyil ki, dövlət başçımız cənab İlham Əliyev daim öz çıxışlarında Azərbaycan-Türkiyə qardaşlıq, dostluq münasibətlərinin Avrasiya qitəsi üçün də böyük əhəmiyyət daşıdığını vurğulayıb. Cənab Prezident eyni zamanda, Binəli Yıldırımın Türkiyə Böyük Millət Məclisinin sədri vəzifəsində çalışdığı dövrdə də parlamentlərarası əlaqələrimizin uğurla inkişaf edəcəyinə əminliyini bildirərkən də, bu kimi əhəmiyyəti amilləri önə sürüb".

B.Quliyev sonda daha bir vacib faktora diqqəti cəlb edib: "Cənab Binəli Yıldırım da Azərbaycana səfəri çərçivəsində ölkələrimizin regional və beynəlxalq arenada birgə fəaliyyət göstərən iki dost və qardaş ölkə olduğunu xüsusilə vurğulayıb. Gerçəkləşən bu səfər ölkələr arasındakı münasibətlərin daha da inkişafına mühüm təkan verəcək. Düşünürəm ki, bu gün dünyanın siyasi arenasında Azərbaycanla Türkiyə arasında olan münasibətlər və qardaşlıq telləri başqa dövlətlərdə bu qədər inkişaf etməyib. Məhz bu kimi mövcud reallıq ölkələrimizin münasibətlərinin təməlli şəkildə möhkəmləndirməsinə xidmət edir".

# Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti Xaçmazda keçirilmiş əməliyyatla bağlı birgə məlumat yayıblar



Radikal dini ekstremist qrupun üzvü Nəcəfov Nizami Adil oğlunun silah-sursat və partlayıcı maddələr əldə etməsi, ölkənin şimal rayonlarında terror aktı planlaşdırdığı barədə daxil olmuş məlumat aparılan araşdırmalar nəticəsində təsdiqlənib. Bununla bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və prokurorluq əməkdaşları tərəfindən birgə təxirəsalınmaz tədbirlər keçirilib.

Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, 2018-ci il avqustun 28-də Nizami Nəcəfovun Xaçmaz rayonu ərazisində tərksilah olunması və cinayət məsuliyyətinə cəlb edilməsi üzrə keçirilən əməliyyat tədbirləri zamanı, o, təslim olmaq barədə qanuni tələblərə tabe olmayaraq avtomat silahdan atəş açaraq silahlı müqavimət göstərib. DTX-nin xüsusi əməliyyat qrupu tərəfindən cavab tədbiri olaraq xidməti silahdan istifadə edilməklə N.Nəcəfov məhv edilib. Hadisə yerinə və cəsədə baxış zamanı N.Nəcəfovun üzərindən bir ədəd "AKSU" tipli avtomat, həmin silaha aid sursat, eləcə də kustar üsulla hazırlanmış partlayıcı qurğu aşkarlanaraq maddi sübut kimi götürülüb. Cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Bakı dünyanın ən sürətli dəyişən məkanıdır



***Azərbaycanın yüksək sürətlə inkişaf edən iqtisadiyyatı, bütün sahələrdə nailiyyətlərin əldə olunması ilə yanaşı, ölkəmizin simasının dəyişməsinə də səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsidir ki, iqtisadi yüksəliş, sosial-mədəni tərəqqisi ilə seçilən Azərbaycanda yaranan bu mənzərə həyata keçirilən dövlət proqramları, islahatlar və genişmiqyaslı layihələr əsasında reallaşıb. Bu inkişaf müstəqil Azərbaycan dövlətinin paytaxtından da yan keçməyib. Qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunan Bakının rəmzinə çevrilən və ona yeni sima və rəng verən müasir tikililər də, məhz iqtisadi göstəricilərin məntiqidir.***

Bakının ümumi görünüşünü daha da müasirləşdirən "Alov Qüllələri", Dövlət Bayrağı Meydanı, "Crystal Hall", Heydər Əliyev Mərkəzi kimi tikililər və memarlıq inciləri kimi heyrətə səbəb olan nadir nümunələr onun panoramasında nəzərəçarpacaq dəyişikliklərə səbəb olub. Son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması paytaxtımızın simasına daha bir rəngarənglik əlavə edib. Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" - dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur.

Bakıdakı Dənizkənarı Milli Park Bakı şəhərinin ən maraqlı və spesifik təbii şəraitə malik yerlərindəndir. Bu gün Milli Parkımız ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Burada "Baku Kristal Hall"ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. "Baku Kristal Hall"ın əhəmiyyətini artıran mühüm amillərdən biri də onun Dövlət Bayrağı Meydanı ətrafında yerləşməsidir. Bəli, dövlətimizin başçısının Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması ilə bağlı tapşırıqları əsasında şəhərimizin sahil boyuna xüsusi yaraşıq verən və ümumi sahəsi 20 hektar, uzunluğu 1,8 kilometr olan yeni bulvar salınıb. Bu bənzərsiz, möhtəşəm görkəm Bakının dünyanın ən görməli 52 şəhərindən biri kimi seçilməsinə səbəb olub.

Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizi gözəlliyinə yeni gözəlliklər qatılır. Bakı Bulvarında yenidən bərpa edilən "Qu quşları" fəvvarə kompleksi buranın əzəmətinə, görkəminə xüsusi bir rəng verir. Bakı Bulvarının tarixi rəmzlərindən biri olan "Qu quşları" fəvvarə kompleksi 60 ildən artıq tarixə malikdir. Paytaxtımızda qurulan "Qu quşları" fəvvarəsi də sakinlərin sevimli məkanlarından biri kimi hər zaman sevilib. Dünyaşöhrətli, Azərbaycanın dahi şairi Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə paytaxtın gözəl məkanlarından biridir. Xatırladaq ki, "Qu quşları" fəvvarəsinin kompozisiyası bir neçə dəfə işlənilib. 1960-cı illərin əvvəlində 7 qu quşundan və hovuzdan ibarət olan kompozisiyaya 1980-ci illərdə yeni çalarlar əlavə edildi. 1990-cı illərin əvvəlində ölkədə hökm sürən xaos və baxımsızlıq səbəbindən, bir çox digər ictimai obyektlər kimi, bu ansambl da bərbad vəziyyətə düşdü. 2007-ci ildə Dənizkənarı Bulvar yenidən qurularkən, onun yerində mərmər fəvvarə kompleksi yaradıldı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi. Layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub və 7 qu quşu heykəli hazırlanıb. Bu məkan müasirləşən paytaxt Bakının görkəminə daha bir gözəllik və möhtəşəmlik gətirdi. İndi şəhərimizin sakinləri və buraya üz tutan minlərlə əcnəbi bu gözəlliyi seyr edəcək və qədim və müasir Bakının gözəlliklərinə və hüsnünə heyran qalacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***





## Binəli Yıldırım: "Türkiyə-Azərbaycan əlaqələri gündən-günə daha da inkişaf edir"

Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə ən yüksək səviyyədədir. İstər ikitərəfli əlaqələrdə, istərsə də regional məsələlərdə mövqeyimiz eynidir. AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım deyib.



Hər iki dövlətin yeni vəzifəyə başlayan rəsmilərinin ilk səfərlərini qardaş ölkəyə etdiyini vurğulayan Binəli Yıldırım deyib: "Bu, ölkələrimiz arasında formalaşan gözəl ənənədir. Biz də bu ənənəni davam etdiririk. Türkiyə Böyük Millət Məclisinin yeni sədri olaraq ilk səfərlərimdən birini dost və qardaş Azərbaycana etmişəm".

Türkiyə Böyük Millət Məclisinin sədri səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini, səmərəli müzakirələr apardığını qeyd edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan parlament sədri ölkələrimiz arasında ticarət əlaqələrinin və qarşılıqlı sərmayə qoyuluşunun genişləndiyini, strateji layihələrin davamlı olaraq həyata keçirildiyini, bütün istiqamətlərdə əlaqələrimizin gündən-günə daha da inkişaf etdiyini vurğulayıb.

## Mamuka Baxtadze: "Gürcüstan ilə Azərbaycan birlikdə tarixi əhəmiyyətli layihələr həyata keçirirlər"



Gürcüstan ilə Azərbaycan strateji tərəfdaşdırlar və birlikdə tarixi əhəmiyyətli layihələr həyata keçirirlər. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri Mamuka Baxtadze avqustun 29-da keçirdiyi brifinqdə söyləyib. Bildirib ki, Azərbaycana avqustun 30-da nəzərdə tutulmuş səfəri çərçivəsində bir sıra vacib məsələlər müzakirə olunacaq.

Hökumət başçısı deyib: "Bakıya səfərim zamanı biz regional əməkdaşlıq sahəsində yeni istiqamətləri, həmçinin ticari münasibətlərin daha da genişləndirilməsi, sərmayə qoyuluşu və digər sahələr üçün yeni təşəbbüsləri nəzərdən keçirəcəyik. Bu, Gürcüstanın iqtisadi inkişafına müsbət təsir göstərəcək".

Qeyd edək ki, M.Baxtadze avqustun 30-da Azərbaycana səfər edəcək. İki gün davam edəcək səfər çərçivəsində qonşu ölkənin hökumət başçısı Azərbaycanda bir sıra yüksək səviyyəli görüşlər keçirəcək.

## XİN-dən Bilzeryanın Qarabağa səfərinə münasibət



Göründüyü kimi, populizm nəticə etibarilə müxtəlif formalı klounluğa yol açır. Belə qeyri-ciddi adamların kloun fəaliyyətini, əslində, şərh etməyə lüzum yoxdur.

SİA-nın məlumatına görə, bunu açıqlamasında Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyev ABŞ-da yaşayan və bir müddət öncə Yerevana səfər edən milyonçu, "poker kralı" Den Bilzeryanın Ermənistanın sabiq prezidenti Robert Koçaryanın oğlu Levon və onun arvadı ilə birlikdə Qarabağa gəlməsinə, oradan silahdan istifadə edərək, atəş açmasına münasibətini bildirərkən deyib. "Onun Azərbaycanın işğal olunmuş ərazilərinə səfərini təşkil edənlər isə bu kimi klounlarla və qeyri-ciddi işlə məşğul olmaq əvəzinə, münaqişənin həll edilməsi və regionda sülhün təmin olunması ilə məşğul olmaları daha faydalı olardı", deyə XİN rəsmisi əlavə edib.

# Azərbaycan xalçaçılığı - milli və bəşəri mədəniyyətin nadir nümunəsi

***Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Xalçaçılıq Azərbaycan xalqının məişətində özünə möhkəm yer tutmuş və az qala xalqın rəmzinə çevrilmiş sənət növüdür. Müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə, yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda, yüksək estetik əhəmiyyət kəsb edir.***



Xalçaçılıq sənəti hələ tunc dövrünə, yəni 5 min il bundan əvvələ gedib çıxır. Bu sənət özündə ölkənin təbiətini, tarixini və həyat tərzini əks etdirir. Tarixi mənbələrə görə, Azərbaycan orta əsrlər dövründə Şərqdə xovlu və evdə toxunan xalçaların istehsalına görə mühüm mərkəzlərdən biri olub. Qədim sənət nümunəsi kimi Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Tədqiqatlar göstərir ki, Azərbaycanın şimal-şərq hissəsi V-VII əsrlərdə yüksək keyfiyyətli xalça istehsalına görə mərkəz olub. Orta əsrlərdən başlayaraq, bütün dünyada ticarət vasitəsi rolunu oynayıb. Bu gün də ölkədə müxtəlif toxunuş və ornamentlərlə zəngin olan saysız-hesabsız xalça növləri mövcuddur.

Azərbaycan xalçalarının unikal nümunələri dünyanın müxtəlif ölkələrinin muzeylərində layiqli yer tutur. Təsadüfi deyil ki, sovet məkanında yaşadığımız illərdə - SSRİ-də də ilk dəfə xalça muzeyi məhz Bakıda yaradılmışdı və ölkədə yeganə xalça muzeyi olub. Dünyada 3-4 belə muzey mövcud idi. Hətta İran Xalçaları Muzeyi belə Bakıda olan muzeydən sonra açılıb. Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Bakıda, dəniz kənarında muzeyin bükülmüş xalça formasında yeni unikal binası tikilib.

Azərbaycan xalçaları bütün dünyada məşhurdur və zəngin qədim tarixə malikdir. Azərbaycan xalçası Vətənimizin hüdudlarından uzaqlarda da şöhrətlənib. Xalçaçılıq Azərbaycanın milli mənsubiyyəti olduğundan, YUNESKO-nun qeyri-maddi irsi kimi tanınıb. Dövlət tərəfindən xalçaçılığa böyük diqqət və qayğı göstərilir. Bu gün ipək və yundan hazırlanmış Azərbaycan xalçaları Bakı, Quba, Şirvan, Qarabağ, İrəvan, Gəncə, Qazax, Naxçıvan və Təbriz məktəbləri ilə təmsil olunur.

Xalça sənəti tarixi mübarizələrlə dolu keçmişi olan xalqımızın yaşam tərzini, mənəviyyat tarixini xalçalara köçürərək, nəsillərdən-nəsillərə ötürüb və bu günə kimi yaşadıb. Bu sənətin ümumxalq sənəti kimi yaşaması, mədəniyyətimiz, milli dəyərlər sistemində layiqli yer tutması onun əzəli və əbədi mahiyyətilə bağlıdır. Bu günlərdə Azərbaycan Xalça Muzeyi dünyada ən məşhur və nüfuzlu turizm saytı olan "TripAdvisor"un "Mükəmməllik sertifikatı 2018" mükafatına layiq görülüb. Bu mükafata il ərzində "TripAdvisor"da səyyahlar tərəfindən daha çox müsbət rəylərə müvəffəq olmuş incəsənət və mədəniyyət ocaqları, o cümlədən, turizm obyektləri layiq görülür. Mükafat saytda milyonlarla insanın müsbət rəyləri əsasında seçilmiş obyektlərə verilir və bununla da, ictimai rəyi ifadə etmiş olur.

Təsadüfi deyil ki, 2010-cu ildən təsis edilən bu mükafatla, məhz ən yüksək səviyyədə xidmət göstərən mədəniyyət ocaqları, həmçinin, otel və restoranlar da təltif olunur.

Azərbaycan Xalça Muzeyi 2017-ci ildə də ilin ən yaxşı muzeyi kimi "TripAdvisor" saytının "Mükəmməllik sertifikatı"nı alıb. Həmçinin, 2017-ci ildə Azərbaycan Xalça Muzeyini 80 min nəfərdən artıq şəxs ziyarət edib və respublikamızda muzeylər içərisində rekord göstəriciyə sahib olub. Bu ilin səkkiz ayı ərzində isə, muzeyin ziyarətçilərinin sayı 63 mini keçib.

Son iki il ərzində muzey, həmçinin, bir sıra beynəlxalq mükafatlara - 2017-ci ildə Beynəlxalq Muzeylər Şurasının (ICOM) Beynəlxalq Sənədləşmə Komitəsi (CIDOC) tərəfindən "Ən yaxşı təcrübə" mükafatına və "Avropanın ən yaxşı muzeyi - 2018" müsabiqəsində "Muzey sahəsində ictimaiyyətlə işin qurulmasında innovasiyaların tətbiqinə görə" sertifikata layiq görülüb.

Xatırladaq ki, muzeydə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur. Hazırda muzeyin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır.

Azərbaycan xalqın maddi və mənəvi irsini təşkil edən Azərbaycan Xalça Muzeyi dünya xəzinəsindəki nadir xalçaların dəyərinə və əhəmiyyətinə görə ən böyük xalça kolleksiyası, xalça sənəti üzrə birinci, nüfuzlu və ixtisaslaşmış muzeydir.

***ZÜMRÜD BAYRAMOVA***

# "Naxçıvanın məhkəmə tarixi" adlı kitab çapdan çıxıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi əsasında hazırlanan Naxçıvanın məhkəmə tarixinə həsr olunmuş "Naxçıvanın məhkəmə tarixi" adlı kitab çapdan çıxıb. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, giriş, beş fəsil və əlavələrdən ibarət olan kitab 280 səhifədir və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunub.*

Müəlliflər müxtəlif dövrlərdə məhkəmələr haqqında qüvvədə olmuş qanunvericilik aktlarını və məhkəmə təcrübəsini təhlil edərək, VII əsrdən bu günədək bəşər sivilizasiyasının qədim məskənlərindən olan Naxçıvanda məhkəmə orqanlarının yaranması və onların fəaliyyət dairəsinin əsas prinsiplərini tədqiq ediblər. Kitab müxtəlif arxiv sənədləri, dövri mətbu materiallar, mövcud elmi ədəbiyyatlar əsasında hazırlanıb. Onun yazılmasında, həmçinin görkəmli Azərbaycan tarixçilərinin, ərəb və farsdilli müəlliflərin əsərləri, avropalı alimlərin və səyyahların gündəlikləri, qeydləri və məlumatları, habelə rəsmi internet resurslarından mənbə kimi istifadə olunub.



# Siyasi parçalanma: Ermənistanın daxili reallığının bir aspekti

***Adətən, erməni mütəxəssislər öz siyasi hakimiyyəti və xalqı haqqında yüksək pafosla danışırlar. Onlar əsrlərdir beyinlərinə yeridilən yalanların həqiqət olduğuna inanıblar və indi həmin durumdan xilas olmağın çətinliyini öz üzərlərində hiss edirlər. Hazırda Ermənistanın siyasi səhnəsində ciddi böhranın yaşanmaqda olduğunu erməni ekspertlər açıq etiraf edirlər. Onlar başlıca olaraq prezidentlə baş nazir arasında siyasi fikir ayrılığının dərinliyini vurğulayırlar. Məsələ daha geniş kontekstdə məzmuna malikdir. Ölkənin bütün siyasi spektri qarşıdurmaya meyllidir. Bu prosesə Ermənistana ənənəvi olaraq diqtə edən xarici böyük güclər də öz təsirlərini edirlər. Nəticədə, kifayət qədər mürəkkəb və risklərlə dolu situasiya yaranıb. Bu vəziyyətin konkret siyasi faktorlara təsiri üzərində geniş dayanmağa ehtiyac var.***




## Demokratiya və şəxsi iddialar: siyasi labirintin astanasında

Ekspertlər Ermənistanın daxili sosial-siyasi vəziyyətinin dərin böhrana doğru getdiyi haqqında proqnozlar verirdilər. Artıq erməni ekspertlər belə bu faktdan danışırlar. İndi onlar konkret problem üzrə bu kvazidövlətdə parçalanmanın müşahidə edildiyini etiraf edirlər. Özü də məsələ kifayət qədər ciddi məqamlardan qaynaqlanır. Hətta bir sıra mütəxəssislər məsələni, ümumiyyətlə, Ermənistan adlı dövlətin qalıb-qalmayacağı kontekstində qoyurlar.

Məsələ yeni hakimiyyətin seçki ilə bağlı ölkəni böhranlı vəziyyətə sürükləməsi ilə əlaqədardır. Belə ki, Nikol Paşinyan seçki faktorundan hakimiyyətini möhkəmlətmək üçün istifadə etməyə çalışır. Onun konkret ifadəsi prezidentlə baş nazirin bu məsələdə fikir ayrılığında olmasındadır. İrəvanın Ağsaqqallar Şurasına seçki faktiki olaraq siyasi səhnədə parçalanma əmələ gətirib. Bu seçkidə Respublika Partiyası iştirak etməyəcək. Bu, gizli ixtilafın qaynağı ola bilər. Lakin çətinlik bununla məhdudlaşmır.

Hakimiyyət etiraf edir ki, növbədənkənar seçki keçirmək üçün problemlər yaranıb. Çünki növbədənkənar seçkinin keçirilməsi üçün konstitusiya islahatları lazımdır. Baş nazir istefa vermədən parlament buraxılmalıdır. Bundan başqa, N.Paşinyan bəyan edib ki, keçid xarakterli məhkəmə-hüquq sistemi yaradılmalıdır. Bu iki islahatı ekspertlər kifayət qədər ciddi hesab edirlər. Çünki mövcud sistemin geniş miqyasda dəyişdirilməsini tələb edir. Buna Ermənistan siyasi dairələrinin hazır olmadığı da vurğulanır.

Başqa yol, çox nüfuzlu bir insanın qarşı-qarşıya duran tərəflər arasında vasitəçilik missiyasını həyata keçirməsindən ibarətdir. Bunun üçün indiki prezident Armen Sarkisyana işarə edirlər. Əsas ziddiyyət də elə məhz burada özünü göstərir. Əvvəla, A.Sarkisyan öz mövqeyini hələ ifadə etməyib. O, "məxməri inqilab"a yardım edib, lakin, eyni zamanda, prezidentin səlahiyyətlərinin artırılması şərtindən də bəhs edir. İkincisi, N.Paşinyan bunun qarşılığında bəyan edib ki, səlahiyyətləri prezidentə deyil, yalnız parlamentə güzəştə gedə bilər. Bu da Ermənistanda faktiki olaraq baş nazir-prezident rəqabətinin getdikcə daha konkret cizgilər aldığını göstərir. Burada üç variant ola bilər.

Birincisi, A.Sarkisyan doğrudan da inqilabla konstitusiya arasında vasitəçi rolunu oynayır. İkincisi, A.Sarkisyan birmənalı olaraq konstitusiyanı müdafiə edir. Üçüncüsü, prezident sadəcə N.Paşinyanla mövcud konstitusiyanı müdafiə edənlər arasındakı mübarizənin nəticəsini gözləyir və ona uyğun hərəkət edir. Bunlardan hansının reallaşması ehtimalı çoxdur?

Bu barədə erməni ekspertlər fikir bildirməsələr də, bütövlükdə vəziyyətin gərginləşəcəyini açıq və ya üstüörtülü etiraf edirlər. Ölkədəki real siyasi vəziyyətə baxdıqda, həqiqətən, bu məsələdə durumun daha ağır olduğunu görə bilərik.

Başqa sözlə, getdikcə aydın olur ki, N.Paşinyanın hakimiyyət hərisliyi yüksək səviyyədədir. O, istənilən islahata özünün siyasi mövqeyini gücləndirmək şərti ilə getməyə hazırdır. Bundan kənarda N.Paşinyanı heç nə maraqlandırmır. İkrahdoğurucudur ki, baş nazir öz hərəkətlərini demokratiya, milli maraqlar, korrupsiya ilə mübarizə və Qərbə yaxınlaşma kimi qiymətləndirir.

Məqsədinə çatmaq üçün isə əsas olaraq küçədən təzyiqlərə üstünlük verir. İndiyə qədər onun heç bir ciddi işdə qanuna dayandığı görünməyib. Bütün həlledici məqamlarda üzünü meydana tutur. 17 avqustda Respublika meydanında keçirdiyi siyasi şou da bunu bir daha təsdiq etdi.

Bunlar N.Paşinyanın yalnız konkret şərtlər daxilində islahatlara gedə biləcəyini təsdiq edir. Məsələnin digər tərəfi ölkədə fəaliyyət göstərən başqa siyasi qüvvələrin maraqlarına bağlıdır. Başlıca sual bundan ibarətdir: Ermənistanın siyasi qrupları N.Paşinyanın bu cür "şıltaqlığını" həzm etməyə hazırdırlarmı? Deyək ki, daşnaklar, sarukyançılar, Robert Koçaryan, Serj Sarkisyan və Levon Ter-Petrosyan dünən küçələrdə veyllənən birisinin Ermənistanın siyasi səhnəsinin lideri və situasiyaya tam nəzarət etmək iqtidarında olmasını qəbul edirlərmi?

## Qarşıdurma: prezident, yoxsa baş nazir?

Bəs indiki prezident Armen Sarkisyan bu ssenariyə necə baxır? Onun tələbindən aydın görünür ki, Ermənistanın prezident üsul-idarəsinə qaytarılması tərəfdarıdır. A.Sarkisyan ancaq özünün səlahiyyətlərinin artırılması fonunda islahatlardan bəhs edir. Bu, onu göstərir ki, başlıca qarşıdurma xətti prezidentlə baş nazir arasında olacaq. Vəziyyəti daha da qəlizləşdirən bu ziddiyyətin arxasında iki böyük xarici gücün dayanmasıdır. Söhbət ABŞ və Rusiyadan gedir.

Kremlin Nikol Paşinyandan narazı olduğu məlumdur. Daha doğrusu, məsələ onun şəxsiyyətində deyil, siyasi kursundadır. Lakin Moskva sadə erməniləri qıcıqlandırmamaq üçün hələ kəskin addımlar atmır. Əvəzində, Rusiyadakı erməni diasporunun imkanlarından istifadə edir. Diaspor isə son zamanlar daha açıq surətdə N.Paşinyanın siyasi kursunu tənqid edir. Hətta bəzi iş adamları Ermənistana sərmayələrini geri çəkməyə başlayırlar.

Rusiya N.Paşinyanın əvəzində A.Sarkisyana üstünlük verir. Prezident üsul-idarəsi vasitəsilə Ermənistandakı situasiyaya daha yaxşı nəzarət etmək olar. ABŞ isə bunun əksini düşünür. Vaşinqton üçün ən önəmlisi Rusiyanın Ermənistandakı nüfuzunu zəiflətməkdir. Bunun üçün ilk öncə Ermənistanın siyasi səhnəsini yeniləşdirmək gərəkdir. İki böyük gücün qarşıdurma xətti də məhz bu məqamdan keçir. Hazırda bu forpost ölkədə cərəyan edən siyasi proseslərin arxasında Moskva ilə Vaşinqtonun "qol güləşi"nin gərginliyi dayanır.

N.Paşinyan hakimiyyəti də öz kartını açıb. O, küçədən parlamentə xalqın təzyiqi ilə yeni seçki təyin edə bilər. Hələlik parlamentin spikeri Ara Babloyan məsləhətləşmələrə başladığını bəyan edib. Onun prezidentlə də görüşəcəyi haqqında informasiyalar yayılır. Bu üsulun səmərəli olacağına şübhələr mövcuddur. Çünki söhbət prinsipial səviyyədə hakimiyyət bölgüsündən getməklə yanaşı, Ermənistanın geosiyasi mövqeyi ilə də əlaqəlidir. Həmin kontekstdə mübarizənin nəticəsi daha çox ABŞ, yoxsa Rusiyanın qalib gəlməsindən asılı olacaq. Həmin vaxta qədər Ermənistanın daxili siyasi vəziyyəti gərginliyini saxlayacaq.

Burada bir çox ekspertlərin diqqət yönəltdiyi bir məqamı da qeyd etməyə dəyər. Ermənistanda korrupsiya ilə mübarizə adı altında aparılan kampaniya ciddi maneə ilə üzləşib. N.Paşinyan əmin olub ki, əsas məsələ Ermənistanın dövlət kimi korrupsiya sxeminə təslim olmasından ibarətdir. Yəni faktiki olaraq bütövlükdə idarəetmə sistemini yenidən qurmaq lazım gəlir. Bu isə reallaşma baxımından son dərəcə mürəkkəb bir işdir. Gürcüstan nümunəsi göstərdi ki, müvəqqəti və lokal uğurlar əldə etmək olar, lakin tam yenilik üçün hansısa başqa şərtlərin olması gərəkdir.

Deməli, Ermənistanın yaxın zamanlarda siyasi palitrasının ciddi surədə yeniləşməsini proqnozlaşdırmaq olar. Onun əsas əlaməti parçalanma tendensiyasının dərinləşməsindən ibarət olacaq. Hesab etmək olar ki, Ermənistanın müasir tarixində bu, gələcəyə ciddi təsir edəcək prosesdir. Çünki ilk dəfədir ki, erməni psixologiyasında erməninin erməniyə qarşı durması siyasi məzmun kəsb edir. Hələlik erməni siyasi şüurunun bu cür diferensiasiyasının ümumən toplumun psixoloji özəlliyini hansı istiqamətə yönəldəcəyini kimsə deyə bilməz.

Axı, yüz il sonra erməni əyani olaraq "görür" ki, əsl düşmən kənarda deyil, tarix qondarma "soyqırımı" nağılından ibarət deyil, yanında duran və öz xalqının nümayəndəsi olan adam əsas düşməndir. Çünki o, xalqını istismar edir, sadə erməniləri söyür, sözdə "soyqırımı" deyir, lakin soydaşlarına qarşı əsl soyqırımını erməninin özü edir. Buna nümunə kimi N.Paşinyanın özü korrupsiya faktlarını sadalamaqla göstərə bilər! Erməni xalqı üçün həqiqət anı budur! Bütün islahatlara o, öz şüurunda və psixologiyasında köklü dəyişikliklərdən başlamalıdır. Vicdanını qarşısına qoyub, qonşulara qarayaxmanın bədəlini ödəməlidir. Yalnız ondan sonra hansısa qalıcı siyasi islahatdan danışmaq olar! Əks halda, ermənilərin bütün islahatlar prosesi yeni "soyqırımı" nağılını uydurmaqdan o tərəfə keçə bilməyəcək.

***Newtimes.az***

# Azərbaycanda turizmin və sahibkarlığın inkişafına dair sistemli və kompleks tədbirlər həyata keçirilir



"Son illər respublikamızda turizm sahəsində əldə olunan nailiyyətlər dövlət siyasətinin uğurla həyata keçirilməsi zəminində baş verir. Ölkəmizdə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində görülən məqsədyönlü işlər öz nəticəsini verir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkə iqtisadiyyatına neft sektoru tərəfindən gələn gəlirdən daha artıq gəlir gətirə biləcəyi turizmin inkişafını zəruri hesab etməsi, real faktlara əsaslanır".

Bunu "BF-Group" şirkətinin rəhbəri Aydın Əhmədov "Səs" qəzetinə verdiyi açıqlamasında bildirib: "Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi, turizm Azərbaycanda prioritet istiqamətlərdən biridir. Bu sözlər bir daha qarşımızda böyük prespektivlər açır və biz sahibkarların məsuliyyətini artırır. Ölkənin yerləşdiyi mühüm strateji mövqedən yararlanaraq uğurlu beynəlxalq iqtisadi layihələrin reallaşdırılması, iqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən, sahibkarlıq sektorunun inkişafına güclü təkan vermişdir. Bu baxımdan, Azərbaycanda turizmin və sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir. Həyata keçirilən tədbirlər isə, təbii ki, bizlərə dəstək üçün nəzərdə tutulub və ümumilikdə, ölkə iqtisadiyyatının inkişafına hesablanıb. Dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində, ölkə iqtisadiyyatında özəl sektorun faiz tərkibi artır, eyni zamanda, əhalinin məşğulluğunun təmin olunmasına yol açır. Ölkə iqtisadiyyatının inkişafı, turizm sahəsinə də öz təsirini göstərir. Bu gün dünyanın bir çox ölkələrində aparıcı sənaye sahəsinə çevrilən turizm Azərbaycanda da sürətlə inkişaf etməkdədir. Azərbaycanın turizm sahəsində rəqabət imkanları çox yüksəkdir. Əminliklə deyə bilərik ki, dövlətin turizmə yaxından diqqəti və qayğısı, eləcə də, bizlərin üzərinə düşən vəzifələrin yüksək səviyyədə icrası bu sahənin gələcək inkişafına daha böyük imkanlar yaradacaq və yeni nailiyyətlər əldə olunacaqdır".

**ZÜMRÜD**

# "Bank of Baku" və Bakcell "Ulduzum"la xaricə səyahət lotereyasının qalibləri müəyyən edildi

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi olan Bakcell şirkətinin ölkənin aparıcı banklarından olan "Bank of Baku" ilə birgə keçirdiyi stimullaşdırıcı tirajlı lotereyanın qalibləri müəyyən edildi.***



Lotereyanın əsas qalibləri 27 avqust 2018-ci il tarixində ölkənin aparıcı media agentliklərinin nümayəndələrinin iştirakı ilə keçirilmiş tiraj zamanı avtomatik qaydada xüsusi kompüter proqramı vasitəsilə təsadüfi seçim əsasında müəyyən edilib. Belə ki, "Bakcell" abunəçisi olan "Bank of Baku" müştərisi Kamran Şamiyev uduş fondunun əsas hədiyyəsi olan Dubaya 1 nəfərlik səyahət qazandı. Uduş paketinə viza, Bakı-Dubay-Bakı istiqaməti üzrə təyyarə bileti, Dubay şəhərində 3 və ya 4 ulduzlu oteldə 3 gecə, 4 gün qalmaq haqqı, hava limanından otelə və oteldən hava limanına transfer və səyahət sığortası daxildir. Lotereyanın ikinci əsas qalibi Yamən Fərzəliyeva isə "iPhone" mobil telefonuna sahib oldu. Tirajı keçirən Bakcell və Bank of Baku əməkdaşları lotereyanın əsas qalibləri ilə dərhal telefon əlaqəsi yaradıb onlara şad xəbəri bildirərək öz təbriklərini çatdırıblar.

Qeyd edək ki, 18 may-18 avqust 2018-ci il tarixləri arasında keçirilmiş lotereyanın bütün iştirakçıları yani "Bank of Baku"nun xidmətlərindən faydalanan minlərlə "Bakcell" abunəçisi mobil operatordan bol-bol dəqiqələr, pulsuz internet paketləri və "Bank of Baku"dan xüsusi endirimlər qazandılar. Bu günə kimi Bakcell abunəçilərinin 2.9 milyon nəfəri "Ulduzum" loyallıq proqramının təqdim etdiyi 250-dən artıq biznes tərəfdaşın xidmətlərindən yararlanmaq üçün bu proqrama qoşulub. "Ulduzum" loyallıq proqramı "Bakcell" abunəçilərinə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərinin və proqramın tərəfdaşları olan şirkət müştərilərinin sadiqliyini təşviq etməklə təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda belə ən yaxşı müştəri xidməti göstərən proqramlardan biridir.

Hər bir Bakcell müştərisi "Ulduzum"a qoşula bilər. Bunun üçün heç bir abunə haqqı tələb edilmir. Loyallıq proqramında iştirak etmək üçün "1" rəqəmini 5555 nömrəsinə SMS vasitəsilə göndərmək kifayətdir. Həmçinin, proqramdan istifadəni daha da rahat etmək üçün yaradılmış "Ulduzum" mobil əlavəsi iOS və Android platformalarında çalışan cihazlar üçün www.ulduzum.az saytından yüklənilə bilər.

# Ramil Usubov: "Sentyabrın 1-dən yeni şəxsiyyət vəsiqələrinin verilməsi istiqamətində hazırlıq işləri başa çatıb"



***Daxili İşlər Nazirliyində "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2013-cü il tarixli Fərmanından və "Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanunundan irəli gələn vəzifələrin icra vəziyyətinə həsr olunmuş birgə müşavirə keçirilib.***

DİN-dən SİA-ya verilən məlumata görə, müşavirədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev iştirak ediblər. Tədbiri giriş sözü ilə açan daxili işlər naziri qeyd olunan normativ-hüquqi aktların icrası ilə əlaqədar cari il sentyabr ayının 1-dən yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılacağını diqqətə çatdırıb, Daxili İşlər və İqtisadiyyat nazirliklərinin müvafiq strukturlarının və tərəfdaş "İdrak Texnoji Transfer" şirkətinin bütün ölkə ərazisində göstərilən tarixdən yeni sənədin verilməsi istiqamətində hazırlıq, texniki işləri uğurla başa çatdırdığını bildirib.

Respublikanın iqtisadiyyat naziri Şahin Mustafayev həmkarının fikirlərini bölüşərək yeni nəsil şəxsiyyət vəsiqələrin tətbiqinə hazırlıq mərhələsində prosesə cəlb olunmuş bütün iştirakçıların birgə səmərəli əməkdaşlığını yüksək qiymətləndirib. O, qeyd olunan məsələlərin hər iki dövlət orqanının rəhbərliyi səviyyəsində dəfələrlə müzakirə edildiyini, qarşıya çıxan bütün problemlərin uğurla həllini tapdığını xatırladıb, bu işdə əməyi keçən bütün struktur qurumlara və şəxslərə təşəkkürünü bildirib.

Sonra Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən polis polkovniki Elçin Məmmədov, İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Tural İsgəndərov və "İdrak Texnoji Transfer" şirkətinin məsul əməkdaşı Cavanşir Hüseynov yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi istiqamətində görülən hazırlıq işləri barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.

Qeyd olunub ki, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə respublikanın Ədliyyə, Səhiyyə nazirliklərinin, Dövlət Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərinin, Dövlət Əmlak Məsələləri Komitəsinin informasiya resurslarından istifadə edilməklə zəruri məlumat mübadiləsinin aparılması, həmçinin vəsiqə sahibinin gücləndirilmiş elektron imzasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Sertifikat Xidmətləri Mərkəzindən alınması üçün qarşılıqlı əlaqənin yaradılması təmin olunub. Bundan əlavə, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə zəruri avadanlıqlar ərazi polis orqanlarının qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarında və "ASAN xidmət" mərkəzlərində quraşdırılıb, texniki parametrlərinin və iş göstəricilərinin yoxlanılması məqsədilə onlara sınaq baxışları keçirilib, yeni texnika ilə işləyəcək əməkdaşlar üçün müvafiq treninqlər keçirilib.

Hər iki nazir görülən işlərin Azərbaycan Respublikası Prezidentinin daim diqqət və nəzarətində olduğunu, həyata keçirilən tədbirlər barədə mütəmadi olaraq dövlət başçısına məruzə edildiyini vurğulayıblar, rəhbərlik etdikləri nazirliklərin aidiyyəti qurumlarının cari ilin sentyabrın 1-dən yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə tam hazır olduğunu diqqətə çatdırıblar.

# Tahir Mirkişili: "Ermənistana ən effektli təsiri Minsk Qrupunun həmsədr ölkələri göstərə bilər"



Müsahibimiz millət vəkili Tahir Mirkişilidir

***- Tahir müəllim, Almaniyanın Federal Kansleri Angela Merkellə görüşündən dərhal sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağa səfər edib, separatçı rejim rəhbərləri ilə görüşüb, söhbətlər aparmasının hansısa gözlənilməz məqamlar ola bilərmi?***

- Xanım Merkel Yerevanda görüşlərində də Dağlıq Qarabağ münaqişəsinin həllinin vacib olduğunu və bunu üçün Almaniyanın daha çox dəstək verməyə hazır olduğunu bəyan etdi. Hazırda Ermənistanda siyasi vəziyyət çox mürəkkəbdir. Qarabağdan olan keçmiş siyasətçilərin aktivləşməsi müşahidə olunur. Eyni zamanda, geosiyasi müstəvidə Azərbaycanın üstünlüyü durmadan artır. Düşünürəm ki, bunu anlayan Paşinyan həm Qarabağ separatçılarından dəstək almaq, həm də onların yanında olmaq məqsədilə işğal altında olan Azərbaycan ərazilərinə gedib.

***- Qərbə meyilli şəxs kimi tanınan Paşinyan, ola bilərmi ki, Qərb təmsilçisi Angela Merkelin tapşırığı və göstərişi əsasında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sülhə doğru hansısa bir addım atsın?***

- Düşünürəm ki, erməni siyasətçilərindən istənilən addımı gözləmək mümkündür. İndiki halda, Almaniyanın Ermənistana təsiri o qədər də çox deyildir. Bu baxımdan, Ermənistana ən effektli təsiri Minsk Qrupunun həmsədr ölkələri göstərə bilər. Digər tərəfdən, Azərbaycan Ordusu Ermənistanı konstruktiv addımlar atmağa məcbur edəcək.

***- İqtisadi və hərbi cəhətdən tam çökən Ermənistan Qərbin maliyyə imkanlarından yararlanmaq üçün Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konstruktiv yönümlü danışıqlar aparması və hətta təşəbbüslər irəli sürməsi nə dərəcədə mümkündür?***

- Ermənsitanın təcavüzkar siyasəti onu məhv etməkdədir. Həm Ermənistanda, həm də Dağlıq Qarabağda əhali çətinliklər içərisində boğulur. İqtisadi, sosial və hərbi cəhətdən zəif bir ölkəyə çevrilən Ermənistan bunu getdikcə anlamalıdır. Bizim də gözlədiyimiz budur. Heç kim bölgədə müharibə arzulamır. Ancaq Ermənistan hakimiyyətinin bunu tezliklə anlaması, ilk növbədə, erməni xalqının rifahı üçün vacibdir.

***- Paşinyanın Angela Merkellə danışıqları və dərhal sonra Qərbə ünvanlanan müsbət mesajlar səsləndirməsi nəticə etibarilə Rusiyanı daha da qıcıqlandıra və Paşinyanın zərərsizləşdirməsi üçün əməli addımlar atıla bilərmi?***

- Əslində, keçmiş prezident Koçaryanın siyasətə qayıdışı Paşinyan üçün bir təzyiqdir. Ermənistanın çox az manevr etmək imkanları var. Azərbaycana qarşı hərbi təcavüz, Türkiyə ilə sərhədlərin bağlı olmağı Ermənistanın əl-qolunu tam bağlayıb. Buna görə, düşünürəm ki, Paşinyanın ən böyük uğuru onda ola bilər ki, o, Azərbaycana qarşı hərbi təcavüzü aradan qaldırsın. Əks-halda, heç bir fəaliyyət Ermənistana uğur gətirməyəcək.

***GÜLYANƏ***

# "Paşinyan "millətçilik-əclafın son sığınacağıdır" frazasını bir daha təsdiqlədi"



"Ermənistanın baş naziri Nikol Paşinyan yenidən Dağlıq Qarabağa səfər etdi. Merkellə görüşdən dərhal sonra Dağlıq Qarabağa getməsi guya Merkellə danışıqlarda Dağlıq Qarabağın tənzimlənməsində Ermənistanın xeyrinə ciddi dəyişikliyin baş verməsini çatdırmaqdır". Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.

Politoloq bildirib ki, məqsədi Dağlıq Qarabağda xidmətdə olan oğlu ilə görüşmək də ola bilər: "Oğlunu Dağlıq Qarabağa hərbi xidmətə göndərməsi də Nikol Paşinyanın millətçilik xəstəliyinə düçar olduğunun nəticələrindən biridir. N.Paşinyanın Dağlıq Qarabağa səfərinin digər məqsədi orduda olan qüsurları kiminsə, tutaq ki, müdafiə naziri D.Tonoyanın boynuna qoymaqdır. Zabitlərin maaşı azaldıldı, müqaviləli hərbçilərə yemək verilmir, ordunun əvvəlki təchizat problemləri, o cümlədən alt paltar çatışmazlığı problemi də hələki həllini tapmayıb. N.Paşinyan kimisə günahkar adlandırmalıdır. Əkstəqdirdə özü günahkar hesab ediləcək. Amma Ermənistanda problem təkcə orduda deyil. Ən azı bütün iqtisadiyyat problemlə üz-üzədir. Bu halda N.Paşinyan sosial-iqtisadi problemlərdən diqqəti yayındırmaq üçün nə isə daha ciddi işlə məşğul olduğunu erməni xalqına nümayiş etdirməlidir. Bu Dağlıq Qarabağ problemidir".

M.Əhmədoğlu qeyd edib ki, N.Paşinyanın Dağlıq Qarabağa tez-tez səfərləri özünün millətçi olduğunu nümayiş etdirməkdir: "Millilik və separatçılıq millətçiliyin aşağı və yuxarı hüdudlarıdır. Ermənistanda ictimai-siyasi mühitin əksəriyyəti millətçiliyi çoxdan aqressiv separatçılıqla əvəzləyiblər. Bəziləri hətta mağara millətçiliyi xəstəliyinə düçar olub. Bu baxımdan SSRİnin son illərində geniş yayılmış "millətçilik əclafın son sığınacağıdır" frazasını N.Paşinyan tipli ermənilərdən danışarkən "Mağara millətçiliyi erməni əclafçılığının son sığınacağıdır" kimi ifadə etmək olar.

N.Paşinyan Dağlıq Qarabağ problemində Ermənistanın xeyrinə heç bir dəyişiklik edə bilməyəcək. Əksinə, Dağlıq Qarabağ probleminin həllini yubatması Ermənistanın əvvəlki rəhbərlərinə nisbətən onun dövründə daha çox zərərli olacaqdır. N.Paşinyan əvvəldən düşüncə tərzi problemli adamlar sırasında idi. İndi Ermənistanın mağara millətçiliyinə düçar olması reallıq qarşısında onun gözünü tamamilə kor, qulağını kar edib".

## 3692 müəllim işə qəbul edilib



2018-2019-cu tədris ili üçün ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin birinci mərhələsi üzrə 3692 namizəd işə qəbul edilib. Təhsil Nazirliyindən SİA-ya verilən məlumata görə, müsabiqədən sonra boş qalan yerlərə müəllimlərin əlavə yerləşdirilməsi üzrə vakansiya seçimi keçirilib və bu proses başa çatıb. Avqustun 30-da vakansiya seçimi zamanı elektron yerləşdirilmədə uğur qazanmış namizədlərin müsahibəsi keçiriləcək.

## Kolleclərin boş qalan plan yerləri üzrə 786 abituriyent ixtisas seçib

Dövlət İmtahan Mərkəzi (DİM) ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə internet vasitəsilə ixtisas seçimi elan edib. SİA xəbər verir ki, avqustun 29-u saat 12:00-a olan məlumata əsasən, 786 abituriyent ixtisas seçib. Onlardan 782-si Azərbaycan, 4-ü isə rus bölmələrində təhsil alacaq abituriyentlərdir. İxtisas seçimi sentyabrın 3-dək davam edəcək.

Qeyd edək ki, orta ixtisas təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak üçün ixtisas seçiminə qəbul imtahanında (hər iki mərhələ üzrə) topladıqları ümumi balı 40-dan, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı isə 10-dan az olmayan abituriyentlər buraxılırlar. Ümumi (9 illik) orta təhsil səviyyəsini Azərbaycanın ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə tədris dili (Azərbaycan dili və ya rus dili) və riyaziyyat fənlərindən buraxılış imtahanında (9-cu siniflər üzrə) qazandıqları nəticələr əsasında iştirak edirlər. İmtahan nəticələrinə görə, orta ixtisas təhsili müəssisələrinə qəbul olunan abituriyentlərin boş qalan yerlərə keçirilən müsabiqədə iştirak hüququ yoxdur. İxtisas seçmək hüququ olan abituriyent orta ixtisas təhsili müəssisələrinin dövlət hesabına və ödənişli əsaslarla olan 12-dək ixtisas kodunu seçib www.eservices.dim.gov.az/erizetex/ixtisas2 linkindəki "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni doldurmalı və təsdiqləməlidir.

# Daşkəsəndə "Qadınlar Arasında Həmrəylik" İctimai Birliyi müzakirə təşkil edib



Dünən Daşkəsəndə Qadınlar Arasında Həmrəylik İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə vəsaiti ilə "Hasilat sənayesində şəffaflıq prosesi və hesabatı ilə bağlı ictimai müzakirələrin təşkili" layihəsi çərçivəsində ictimai müzakirə keçirib. Giriş nitqi söyləyən Elmar Əliyev ölkəmizdə görülən işlər barəsində, o cümlədən də, hasilat sənayesində şəffaflığın təmin edilməsi məqsədilə ictimaiyyətin hər zaman məlumatlandırıldığını vurğulayaraq, qeyd edib ki, Daşkəsən sənaye rayonu olduğu üçün sözügedən layihənin rayonumuzda da icrası təsadüfi xarakter daşımır.

Sonra çıxış edən layihənin eksperti Xalid Kazımov məruzəsində deyib ki, Azərbaycan mədən hasilatı üzrə şəffaflıq təşəbbüsü sahəsində bir çox ilklərə imza atan ölkələr sırasındadır. Belə ki, Azərbaycan hasilat sənayesində ən yüksək şəffaflığı təşviq etməklə, beynəlxalq təşəbbüsləri həmişə dəstəkləmiş, 2003-cü ildə Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə (MHŞT) qoşulmuş, 2005-ci ildə dünyada MHŞT üzrə hesabatı ilkin olaraq çap etmiş, 2009-cu ildə tamhüquqlu üzv ölkə statusunu qazanmışdır. Lakin 2016-cı ildən MHŞT çərçivəsində Azərbaycana qarşı qərəzli yanaşmaların və ikili standartların tətbiq olunmasının başlanması səbəbindən, həmin ilin martın 9-da Kolumbiyanın paytaxtı Boqota şəhərində MHŞT beynəlxalq idarə heyətinin 36-cı iclasında Azərbaycanın MHTŞ-də fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilmişdir. Həmin qərarla bağlı Azərbaycan hökuməti bəyan etmişdir ki, ölkəmiz MHŞT-nin prinsiplərini deyil, bir təşkilat kimi MHŞT-ni tərk edir və Azərbaycan bundan sonra da mədən hasilatında şəffaflığın tətbiq olunmasına sadiq qalacaqdır.

Digər çıxış edənlər də ölkəmizdə tətbiq edilən hasilat sənayesində hesabatlılığın təmin edilməsi sisteminin özünəməxsus mütərəqqi özəllikləri və üstünlükləri barədə məlumatlar veriblər.

***R.HÜSEYNOVA***

## Antalyada XIX Beynəlxalq Piano Festivalı başlanacaq

Sentyabrın 1-də Antalyada XIX Beynəlxalq Piano Festivalı başlanacaq. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Antalya Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə keçiriləcək beynəlxalq piano festivalı çərçivəsində, həmçinin vokal çıxışların və rəqs şoularının təqdimi nəzərdə tutulur.

Sentyabrın 9-da tanınmış tunisli etnik caz ustadı Dhafer Youssefin konsert proqramı ilə festivala yekun vurulacaq. Sufi ənənəsi, caz elementləri və ərəb lirizminin yer aldığı konsertdə sənətkar "Diwan of Beauty and Odd" adlı albomunu musiqisevərlərə təqdim edəcək. Festival çərçivəsində gənc pianoçuların müsabiqəsi də keçiriləcək.

# "Ağ qızıl"ın tarixi şöhrəti bərpa olunur

## *Pambıqçı fermer: "Prezidentin tapşırığını yüksək məhsul əldə etməklə yerinə yetiririk"*

***Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı müvafiq tədbirlər həyata keçirilir, dövlət proqramları qəbul edilir, Prezident fərman və sərəncamları imzalanır. Məhz bu diqqətin nəticəsi olaraq, iqtisadiyyatın aparıcı sahələrindən biri olan pambıqçılıq son dövrlər sürətlə inkişaf etməyə başlayıb. Söz yox ki, pambıqçılığın inkişafı, həm də yeni iş yerləri deməkdir. Statistik məlumata əsasən, demək olar ki, hazırda pambıqçılıq sahəsində, ümumilikdə, 200 min nəfərə yaxın insan çalışır. Bu isə məşğulluğun artırılması və insanların maddi şəraitinin yaxşılaşdırılmasına mühüm töhfə verir. İldən-ilə pambıq əkilən sahələr də genişləndirilir. Məsələn, 2018-ci ildə 2017-cı ilə nisbətən 2,7 dəfə çox - 136 min 413,2 hektar sahədə çiyid səpilmişdi. Pambıqçılar hava şəraitinin çətinliklərinə baxmayaraq, istər səpin və budama, istərsə də kolların alaq otlarından təmizlənməsini uğurla həyata keçiriblər.***

### Pambıqçılığın sürətli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır

Bu, faktdır ki, Azərbaycanda pambıqçılığın sürətli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. 1981-ci ildə isə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır. Sonradan hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü bir milyondan 500 min tona düşmüşdür. Yalnız Ulu Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıdışından sonra "ağ qızıl"ın tarixi şöhrətinin bərpası istiqamətində geniş və məqsədyönlü tədbirlər həyata keçirildi. Bununla da, qısa müddətdə, bu istiqamətdə ciddi dönüş əldə olundu. Ulu Öndərimiz Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev kənd təsərrüfatının inkişafı istiqamətində mühüm sərəncamlar imzalamış və dövlət proqramları qəbul etmişdir. Prezident İlham Əliyevin 13 iyul 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" buna misal ola bilər. Dövlət Proqramına əsasən, 2022-ci ilədək xam pambıq istehsalının 500 min tona çatdırılması hədəflənir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz: "Bunu hamı bilməlidir. Əlbəttə ki, rentabellilik olmalıdır. Bəzi sahələr rentabelli sahələrdir, bəzi sahələr subsidiya hesabına yaşamalıdır. Bu, inkişaf etmiş ölkələrdə də belədir. Orada da subsidiyalar var, orada da dövlət fermerləri dəstəkləyir ki, ərzaq təhlükəsizliyi təmin edilsin, iş yerləri yaradılsın. Biz də bu yolla gedirik. Ona görə əgər hansısa kənd təsərrüfatı sahəsində istehsal o qədər də rentabelli deyilsə, bu, böyük faciə deyil, bundan faciə düzəltmək lazım deyil. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, bundan sonra hər şey yoluna düşəcək. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük. Əgər dövlət lazım olan vaxtda öz dəstəyini göstərməsəydi, bu gün kənd təsərrüfatında 4,1 faiz artımdan söhbət belə gedə bilməzdi və əksinə, bəlkə də bu sahə tənəzzülə uğrayardı".





### Dövlət dəstəyi Azərbaycan pambıqçısında gələcək nailiyyətlər üçün böyük inam hissi yaratmışdır

Dövlət dəstəyi və bunun nəticəsində əldə olunan nailiyyətlər, bir daha neftdən sonra "ağ qızıl" adını daşıyan pambığın strateji məhsul olduğunu təsdiqləyir. Hazırda fermerlər məhsul yığımına hazırlaşırlar. Pambıq əkilən rayonlardan hesab olunan Saatlı rayonunun fermerləri, əvvəlcədən tərtib etdikləri plana uyğun olaraq, məhsul yığımını itkisiz və keyfiyyətli şəkildə başa çatdırmaq üçün səfərbər olunurlar. Rayonun Azadkənd kəndinin fermerləri ilin əvvəlindən çəkdikləri zəhmətin bəhrəsini görməyə hazırlaşırlar. Pambıq kollarında qozaların sayının çox olması yüksək keyfiyyətli məhsul əldə ediləcəyindən xəbər verir. Bu, təbii ki, fermer təsərrüfatlarında çalışan zəhmətkeş insanları sevindirməyə bilməz. Maddi vəziyyətlərinin yaxşılaşması ilə bərabər, bu, həm də Prezident İlham Əliyevin pambıqçılar qarşısında qoyduğu vəzifələrin, tövsiyə və tapşırıqların yerinə yetirilməsi deməkdir. Saatlı rayonunun Azadkənd kəndindən olan fermer Nuhəli Kərimov saldığı yamyaşıl, göz oxşayan pambıq sahələrini göstərib, gümrah və əmin səslə deyir ki, dövlət tərəfindən kənd təsərrüfatının inkişafı üçün yaradılan hərtərəfli şərait, maliyyə dəstəyi və zəruri olan hər cür köməyin göstərilməsi pambıq istehsalının tarixi şöhrətinin bərpa olunmasına təkan olur: "Əsasən, kənd təsərrüfatı rayonu olan Saatlı taxılçılıq və heyvandarlıqla yanaşı, pambıqçılığın inkişafı ilə də respublikada ön sıralarda olub. Təkcə 1981-ci ildə rayonda 15 min hektardan çox sahədə pambıq əkilib və hər hektardan 40 sentner olmaqla, 60 min tona yaxın pambıq tədarük olunub. Hazırda pambığın tarixi şöhrətinin bərpası istiqamətində çox xeyirxah işlər gösrülməkdədir. Bu il martın 26-da Prezident İlham Əliyevin Sədrliyi ilə Saatlı rayonunda pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirə və bu müşavirədə pambıq istehsalının artırılması, əkin sahələrinin genişləndirilməsi və digər səslənən fikirlər biz fermerlərin fəaliyyətinin daha da genişləndirilməsinə dəstək oldu. Dövlətin birbaşa dəstəyi hesabına kəndlərdə pambıq əkininə maraq getdikcə artır. Göstərilən kömək aqrotexniki qaydalara, hər işi vaxtında görməyə imkan verir. Suvarma məsələlərinə ciddi diqqət göstərilir. Lazım olan yerlərdə suvarma kanalları yenidən qazılır, lildən təmizlənir. Bir sözlə, bütün bölgələrdə olduğu kimi bizim kənddə insanların işgüzarlığının artması isə onların yaşayış səviyyəsinin yüksəlməsi deməkdir".



N.Kərimovun sözlərinə görə, dövlət dəstəyi Azərbaycan pambıqçısında, ilk növbədə, gələcək nailiyyətlər üçün böyük inam hissi yaratmışdır: "20 hektara yaxın sahədə çiyid səpini həyata keçirdik. Bol məhsul əldə edəcəyik. Çünki qazandığımız təcrübə buna imkan verir. Biz Prezidentin tapşırığını yüksək məhsul əldə etməklə yerinə yetiririk. Ötən il hər hektardan 40 sentner pambıq yığmaqla ili başa vurmuşduqsa, bu il bu göstəricini 55-60 sentnerə çatdırmaq fikrindəyik. Yüksək məhsuldarlıq fermer təsərrüfatında çalışan on ailənin maddi durumunun yaxşılaşması deməkdir. Növbəti illərdə icarə torpaqları hesabına pambıq sahələrini genişləndirməyi nəzərdə tuturuq. Bunun üçün bizə heç nə mane olmur. Əksinə, dövlət dəstəyi, rayonda fəaliyyət göstərən pambıq qəbulu zavodlarının, əvvəlcədən avans olaraq, maliyyə yardımları göstərilməsi və işçi qüvvəsi nəzərdə tutduğumuz işlərin yerinə yetirilməsinə imkan verir". Nuhəli Kərimovun fermer təsərrüfatında çalışan işçilərdən Pəri Həsənova, Göyçək İsmayılov, Dilarə Zahidova, Kənan Cəfərov, İntiqam İsmayılova, Qızqayıt İsmayılova və digərləri yeni dövrün sosial-iqtisadi inkişafının tələblərinə uyğun olaraq, pambıqçılığın sürətli inkişafına nail olunduğunu bildirdilər. Pəri Həsənova yüksək məhsuldarlığın əldə olunması ilə gəlirlərinin də artdığını və buna görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıq etdiklərini söylədi. Onun sözlərinə görə, əmək fəaliyyətləri qarşılığında aylıq olaraq, ümumilikdə, 300-350 manat maaş alırlar ki, bu da kənd şəraitində onların maddi ehtiyaclarının tam şəkildə ödənilməsinə çox böyük dəstək verir.



Tarladan növbəti reportajını hazırlayan "Azərbaycan fermeri" qəzetinin əməkdaşı Ağaverdi Şəmmədov deyir ki, dövlətimizin maddi dəstəyi ilə pambıqçılıq inkişafının yeni mərhələsinə qədəm qoyur: "Artıq bir neçə gündən sonra pambıq yığımına başlanılacaq. Bölgələdə tez-tez oluram. Fermerlərlə görüşür, tarlalarda oluram. Müşahidələrimə əsasən, deyə bilərəm ki, bu il də yüksək məhsul gözlənilir. Məhsul bolluğu kəndlinin sosial-rifah halının yaxşılaşması deməkdir. Buna görə, ölkə Prezidenti Cənab İlham Əliyevə minnətdarıq. Məhz Onun dəstəyi hesabına pambığın inkişafı sahəsində yüksək nailiyyətlər əldə olunur".

### "Kənddə qalıb, ruzi-bərəkət qazanmaq daha yaxşı olar"

Fermer Elxan Zahidov isə, göz oxşayan pambıq sahəsini əli ilə göstərib deyir ki, ruzi-bərəkət əldə etmək və pul qazanmaq üçün şəhərlərə üz tutmaq deyil, kənddə qalıb, maddi durumunu yaxşılaşdırmaq daha yaxşı olar: "Bizə hər cür şərait yaradılıb. Heç bir problemimiz yoxdur. Daha çox əmək sərf etməklə daha çox gəlir əldə etmək olar. Hazırda hər kəsin başı əkin-biçinə, pambıq yığımına qarışıb." Digər fermer Əlizadə Kərimov əkdiyi pambıq sahəsini gəzə-gəzə deyir ki, pambığın yığım qiymətinin artırılması, hər hektara görə subsidiya və güzəştli qiymətə mineral gübrənin verilməsi bu məhsulun becərilməsinə marağı artırıb: "Dövlətin diqqət və qayğısı nəticəsində, kənd təsərrüfatının, bütün sahələrində olduğu kimi, pambıqçılıqda da məhsuldarlığın artırılmasına geniş imkanlar açılır. Əvvəlcədən verilən avans hesabına biz pambıq sahələrinin əkilməsi, onlara lazımi qaydada aqrotexniki qulluğun göstərilməsini həyata keçirə bilirik. Yüksək məhsul əldə edəcəyik. Növbəti il bu sahənin daha da inkişaf etdirilməsi üçün icarə torpaqlarını da əkməyi planlaşdırırıq. Göstərdiyi qayğıya görə, Prezidentimizə minnətdarlıq edirəm".

Gənclər də, kənd həyatında aqrar sahənin inkişafında mühüm rol oynayır və fəallıq göstərirlər. Azadkənd kəndindən olan gənc fermer Elnur Kərimov bildirir ki, dövlətin dəstəyi onları daha böyük uğurlar əldə etməyə həvəsləndirir: "Allaha şükür, dövlətimiz bizim daha rahat və firavan yaşamağımız üçün hər cür şərait və imkanları yaradıb. Kəndlə rayon mərkəzini birləşdirən magistral yol əsaslı şəkildə yenidən qurulub, qaz xətti çəkilib. Gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün geniş imkanlar yaradılıb".

E.Kərimov gənc olaraq, şəhərə getmək deyil, kənddə qalıb, aqrar sahədə çalışmağa üstünlük verdiyini bildirir: "İki ildir ki, pambıq əkirik. Ötən illə müqayisədə bu il yüksək məhsul əldə edəcəyimiz gözlənilir. Hər hektardan 50-55 sentner pambıq yığmağı nəzərdə tuturuq. Əvvəlcədən avans almağımız bu sahədə daha sərbəst və əminliklə çalışmağımıza imkan yaradıb. Növbəti il pambıq sahəsini genişləndirməyi də planlaşdırırıq".

**İ.ƏLİYEV**

# Daşkəsənin Gurbulaq kəndində səyyar qəbul keçirilib

*Dünən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin növbəti səyyar qəbulu Gurbulaq kəndində keçirilib. Səyyar qəbulda rayonun idarə, müəssisə, xidmət təşkilatlarının və hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.*





Açıq havada keçirilən görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev bu cür görüşlərin ölkə Prezidenti Cənab İlham Əliyevin tapşırığı ilə, mütəmadi olaraq, yerlərdə davam etdirildiyini diqqətə çatdırıb. Əhəd Abıyev vurğulayıb ki, Gurbulaq kəndinin işıq, su, qaz, yol ilə bağlı sosial qayğılarının həlli istiqamətində işlər aparılır.

Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin rəhbərliyi altında rayonun sosial-iqtisadi inkişafı sahəsində görülən işlərin Gurbulaq kənd inzibati ərazi dairəsində də uğurla həyata keçirildiyini qeyd edən rayon icra hakimiyyətinin başçısı bu işlərin bundan sonra da davam etdiriləcəyini, kənd sakinlərinin müraciət və təkliflərinin daim diqqət mərkəzində saxlanacağını bildirib.

Sonra kənd sakinlərinin müraciətlərini dinləyən Əhəd Abıyev qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz müvafiq tapşırıqlarını verib. Ayrı-ayrı sahələrə dair kənd sakinləri tərəfindən irəli sürülən müraciət, təklif və şikayətlərin əksəriyyəti yerindəcə həll edilib, bir qismi isə həll edilməsi üçün nəzarətə götürülüb.

Səyyar qəbul zamanı çıxış edən kənd sakinləri, göstərilən diqqət və qayğıya görə, ölkə Prezidenti Cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Təranə Kərimova: “Azərbaycanla Almaniya arasındakı münasibətlər yeni eranın başlanması kimi tarixə yazıldı”



“Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfəri bu gün də Avropanın aparıcı ictimai-siyasi dairələrində, mətbuat səhifələrində işıqlandırılmaqda və müsbət nəticələrə gəlinməkdədir”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının qadınlar şurasının sədri Təranə Kərimova sözügedən məsələyə münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə, Almaniyanın Avropanın əsas dövlətlərindən biri olaraq, xüsusilə, Azərbaycanla yüksək səviyyəli əməkdaşlıq, dostluq və tərəfdaşlıq istiqamətində maraqlı görünməsi özündə əhəmiyyətli məqamları ehtiva etməkdədir: “Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin birgə keçirdikləri mətbuat konfransı zamanı önə sürülən fikirlər, o cümlədən, Azərbaycanda fəaliyyət göstərən alman iş adamları ilə keçirilən görüşdə səslənən ifadələr də, belə qənaətə gəlməyə zəmin yaradır ki, onun səfəri, eyni zamanda, tarixi fakt kimi qiymətləndirilə bilər”.

“Əsas məqamlardan biri də dövlət başçımızın sözügedən konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərinin alman ictimaiyyətinə səhih şəkildə çatdırması oldu” deyə qeyd edən T.Kərimovaya görə, bütün bunlarla yanaşı, regional təhlükəsizlik məsələləri ətrafında Cənab İlham Əliyevin fikirləri, bir daha sübut etdi ki, Azərbaycan öz haqq səsini daim beynəlxalq aləmə çatdırır, Ermənistanın işğalçılıq siyasəti barədə ətraflı məlumatlar verilir: “Əbəs deyil ki, məhz bundan sonra Almaniyanın ATƏT-in Minsk Qrupunun üzvü olaraq, sözügedən münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi məsələsində fəallığını artıracağı barədə istər yerli, istərsə də xarici mediada fikirlər səslənməyə başladı. Belə ki, hazırda bu qrupa üzv olan digər ölkələr də Almaniyanın fəal şəkildə həmin istiqamətdə iş aparacağına müsbət rəylərini veriblər”. YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədri, eyni zamanda, onu da bildirib ki, Azərbaycanın regionda və beynəlxalq aləmdə iqtisadi potensialı artıq ölkəmizin liderlik mövqeyini daha da möhkəmləndirməkdədir: “Söz yox ki, xanım Merkelin rəsmi Bakı səfəri Azərbaycanla Almaniya arasında daha yeni və perspektivli ticari və iqtisadi dövrün başlanmasına da zəmin oldu. Ölkə rəhbərimizin çıxışında irəli sürdüyü fikirləri, eləcə də, ortaya qoyulan statistik rəqəmlər də qeyd edilən faktorlara əsaslanır. Misal üçün, Almaniyadan olan şirkətlərin Azərbaycanda bir çox layihələrdə iştirak etmələri, son 15 il ərzində Azərbaycana 250 milyard dollar həcmində xarici sərmayələrin qoyuluşu da bu reallığı kifayət qədər ehtiva etməkdədir”.

“Azərbaycan qeyd edilən üstünlüklərə malik olmaqla yanaşı, həm də Avropanın enerji təhlükəsizliyində öz əhəmiyyətli rolunu oynamaqdadır” deyə bildirən T.Kərimova qeyd edib ki, bu gün istifadəyə verilən möhtəşəm iqtisadi layihələrin hər biri bilavasitə bu gerçəkliyi sübuta yetirməkdədir: “TAP, TANAP, BTQ, “Cənub Qaz Dəhlizi” və s. çoxsaylı layihələr, qısa müddət ərzində, Azərbaycanın dövlətinin və xalqının daha sürətli inkişafına tərəqqisinə əsaslı zəmin yaradır”. T.Kərimova, həmçinin, vurğulayıb ki, hələ Federal Kanslerin Azərbaycana səfərindən öncə, özlərini “müxalifət liderləri” adlandıran şəxslər vaxtından əvvəl eyforiyaya və utopik xəyallara dalaraq, guya ölkəmizdə demokratik mühitin olmaması və s. məsələlərlə bağlı xanım Merkellə görüş keçirəcəklərini iddia edirdilər. Lakin onların bu ümidləri də doğrulmadı: “Əbəs deyil ki, xanım Merkel öz çıxışlarında bu cür iddiaları qəbul etmədiyini, Azərbaycanla demokratiya və insan haqlarının qorunması ilə bağlı aparılan fikir mübadilələrini, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müzakirələrini yüksək qiymətləndirdi. Hesab edirəm ki, Azərbaycanla Almaniya arasındakı münasibətlər yeni eranın başlanması kimi tarixə yazıldı və bütün bu reallıqlar, əlbəttə ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin qətiyyətli, dönməz və müdrik daxili-xarici siyasətinin uğurlu məntiqli nəticəsi kimi dəyərləndirilir. Bu baxımdan, ölkəmizin və xalqımızın həyatının daha da çiçəklənməsi üçün bizlər bu siyasətin ətrafında sıx birləşib, Möhtərəm dövlət başçımıza davamlı dəstəyimizi göstərəcəyik”.

**R.KAMALQIZI**

# Yevlaxda “İslam sülh və əmin-amanlıq dinidir” mövzusunda tədbir keçirilib

*Dünən YAP Yevlax rayon təşkilatında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Beynəlxalq sülh günü” ilə əlaqədar “İslam sülh və əmin-amanlıq dinidir” mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev açaraq “Beynəlxalq sülh günü” haqqında və ölkəmizdə islam dininin sülh və əmin-amanlıq dini kimi, insanlar tərəfindən qəbul olunaraq, verdiyi faydalardan geniş söz açmışdır. Ə.Quliyev qeyd edib ki, bu gün ölkəmizdə din dövlətdən ayrı olsa da, ölkə Prezidenti İlham Əliyev Cənablarının birbaşa diqqəti və qayğısı sayəsində milli-mənəvi dəyərlərimizin qorunması, ana xətti olan islam dininin inkişaf etdirilməsi istiqamətində geniş imkanlar yaradılmışdır: “Belə ki, əsaslı təmir olunan və yeni tikilən yüzlərlə məscid, ziyarətgahlar insanların dini inanclarının həyata keçirilməsi üçün dövlət tərəfindən yaradılan şəraitlərin bariz nümunəsidir. Ölkəmizdə təkcə islam dininə deyil, digər dinlərə də dövlət qayğısı eyni səviyyədə göstərilir. Nəzərə alsaq ki, ölkəmizdə başqa etnik mənsubiyyətə malik bir çox xalqlar yaşayır və bu insanların hər birinin dini inancına dövlətimiz eyni şəkildə hörmət bəsləyərək, onlara hər cür şərait yaradır. Çünki Azərbaycan dünya ölkələrinə tolerantlıq nümunəsidir. Bu sülh və əmin-amanlıq şəraiti isə Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsində həyata keçirilir”.



Tədbirdə DQİDK-nın Yevlax bölgəsi üzrə şöbə müdirinin əvəzi Vüsal Hüseynli çıxış edərək bildirib ki, “Beynəlxalq sülh günü” BMT-nin 30 noyabr 1981-ci ildəki qərarı ilə bütün dünyada qeyd olunur. Dünyanın 192 ölkəsi, yekdil olaraq, bu qərarın lehinə səs vermişdir.

Sonra çıxış edən Yevlax Cümə məscidinin axundu Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Namiq Əliyev, Yevlax şəhərindən olan digər din xadimləri Vaqif Xəlilov, Hacı Eldəniz Əhmədov, Nəsib Xəlilov və başqaları ölkəmizdə Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti, Vitse-prezident Mehriban xanım Əliyevanın dindarlara yaratdığı şəraitdən razılıqlarını ifadə edərək, bildiriblər ki, Azərbaycan Qafqazda sülhün və əmin-amanlığın mərkəzi olaraq tanınır: “Din xadimləri olaraq, bizə dövlətimiz tərəfindən yaradılan bu cür sərbət imkanlardan və şəraitdən faydalanaraq, çalışmalıyıq ki, ölkəmizdə mövcud olan bütün dinlər və yaşayan bütün xalqlar dostluq, birlik və qardaşlıq şəraitində yaşasınlar. Bu istiqamətdə çalışmaq dövlətimizi və dövlətçiliyimizi qorumaq üçün hər bir vətəndaşın borcudur”. Tədbir qarşılıqlı dialoq şəklində davam etdirilib.

**RƏFİQƏ**

# “Əli Kərimlinin siyasətdən getməsi üçün qapılar açıqdır”

## ADP sədri Sərdar Cəlaloğlu yeni açıqlama ilə çıxış edib

***Satqın və xəyanətkar mövqe ilə seçilən dağıdıcı müxalifət hər fürsətdə cəmiyyətdə özlərinə qarşı məlum rəyi möhkəmləndirirlər. Bunu sübut etmək üçün kifayət qədər tutarlı faklar da mövcuddur. Təkcə bir faktı qeyd etmək lazımdır ki, erməni lobbisinin yer aldığı qərəzli beynəlxalq təşkilatların Azərbaycan haqqında şər və böhtan xarakterli hesabatları dağıdıcı müxalifətin “donos”ları əsasında hazırlanaraq yayılır. Düzdür, bəzən iddialar irəli sürülür ki, qərəzli hesabatların hazırlanması məsələsində siyasiləşmiş QHT-lər daha fəal və ələbaxım rolunda çıxış edirlər. Ancaq fakt faktlığında qalır ki, ilana zəhər verən kərtənkələ olduğu kimi, siyasiləşmiş QHT-ləri də, Azərbaycan dövlətçiliyinə qarayaxma kampaniyasının həyata keçirilməsində dağıdıcı müxalif ünsürlərin siyasiləşmiş QHT-lərə məqsədli tapşırıqları xüsusi rol oynayır.***



### Siyasiləşmiş QHT-lərlə müxalifəti eyni maraqlar birləşdirir

Tərəflərarası iş birliyi bir-birinin maraqlarının təmin olunması na hesablanıb. Yeni Əli Kərimlinin, Arif Hacılının, İsa Qəmbərin siyasiləşmiş QHT-lərə dəstəyi cavabsız qalmır. Leyla və Arif Yunuslar, Emin Milli, Xədicə İsmayıl və bu kimi digər məkrli şəxsləri dağıdıcı müxalifət liderlərinə xaricdən dəstək verir və onların müəyyən tapşırıqlarını anti-Azərbaycan qüvvələrə çatdırırlar. Maraqlıdır ki, Müsavat başqanının keçmiş müavini Qubad İbadoğlu xaricdəki siyasiləşmiş QHT təmsilçilərinin mövqelərini kəskin şəkildə tənqid edir. Q.İbadoğlu X.İsmayılı yalançı müxalif, saxta vətənpərvər adlandırıb: “Siz ey Vətən, millət, dövlət anlayışlarına gizli nifrətini zaman-zaman büruzə verən, əlacsız qalanda son çarə kimi “Çamur at, izi qalsın” prinsipi ilə mövcudluğunu sürdürən prinsipsizlər - yalançı müxaliflər, saxta vətənpərvərlər! Qulaqlarınızı açın və eşidin: mən təmsil olunduğum istənilən beynəlxalq və yerli platformada əsaslandırılmış müstəqil mövqedən çıxış edirəm, mövqeyim həmişə Azərbaycan dövlətinin və müstəqil vətəndaş cəmiyyətinin maraqlarının müdafiəsi üzərində qurulub”.

### AXCP ilə Müsavat heç zaman bir araya gələ bilməyəcəklər

Azərbaycanı istəməyən bəzi məkrli təşkilatların ayırdığı qrant Ə.Kərimli, A.Hacılı və digərləri üçün milli maraqlardan daha önəmlidir. Xaricdəki “söyüş qrupu”nu, eləcə də, adlarını “hüquq müdafiəçi”ləri qoyan özləri kimi ünsürlərin himayədarları rolunda çıxış etməklə, bir daha xalqdan ayrı düşən qüvvələr olduqlarını nümayiş etdirdilər. Baxmayaraq ki, AXCP ilə Müsavat heç zaman bir araya gələ bilmirlər. Bir-birini sıradan çıxarmaq, sanki onların əsas fəaliyyət istiqamətləri olub. Ancaq bu məsələdə bir yerdədirlər. Çünki xarici qrant verən ağaları belə istəyir. ADP sədri Sərdar Cəlaloğlu da mətbuata verdiyi açıqlamasında Ə.Kərimli və A.Hacılını tənqid edib, onları ucuz şoular hesabına siyasi dividend qazanmağa cəhddə ittiham edib. ADP sədri S.Cəlaloğlu Ə.Kərimlinin xaricdən maliyyə dəstəyi almaq üçün hər cür çirkin addım ata biləcəyini də istisna etmir: “Digər tərəfdən, beynəlxalq təşkilatlardan özlərinin təşkilatlanması adı ilə maliyyə dəstəyi almaq üçün dəridən-qabıqdan çıxırlar. Bununla da, müxalifət adını monopoliyalaşdırırlar”.

S.Cəlaloğlu Ə.Kərimlinin “Milli Şura”da oturaraq, dövlətçilik maraqlarını satmaqla məşğul olduğunu da bildirib: “Ə.Kərimli bu gün də Rusiya layihəsinin əsas icraçılarından biridir. İ.Qəmbər vaxtında bunu anlayaraq, “Milli Şura”nı tərk etdi. Ə.Kərimli düşünür ki, Rusiya yenidən Azərbaycanı öz təsiri altına salmaq üçün hərəkətə keçər. Ona görə də, o və ətrafı bir alət kimi ortalığa düşəcəklər”.

### “Əli Kərimli siyasətdə çürümüş ağaca bənzəyir”

S.Cəlaloğlunun sözlərinə görə, Ə.Kərimli siyasətdə çürümüş ağaca bənzəyir: “Onun AXCP rəhbərliyində qalması cəbhəçilərə təhqirdir. O, daha yaxşı olardı ki, partiya sədrliyindən getsin. Ümumiyyətlə, artıq demək olar ki, Ə.Kərimlinin siyasətdən getməsi üçün qapılar açıqdır”.

Bir sözlə, Ə.Kərimli yaramaz siyasəti ilə AXCP-ni dağıtmaqla yanaşı müxalifəti də qara günə qoyub. Məhz bundan çıxış edən İslam Demokrat Partiyasının sədri Tahir Abbaslı da S.Cəlaloğlu kimi düşünür. Bildirir ki, bəzi müxalif partiya sədrlərinin istefa verməlerinə zərurət yaranıb: “Müxalifət düşərgəsində iş o yerə çatıb ki, ağız deyəni qulaq eşitmir. Bir-birilərinin xətalarını, biabırçılıqlarını açmaqdan ötrü ötüşmə gedir. Özlərini o qədər nəzarətsiz və ərköyün hesab edirlər ki, nəinki iqtidarla, heç müxalifət düşərgəsinin özündə də fikir paylaşa, bölüşə bilmirlər. Kimlərsə hər şeyə birinci olaraq sahib durmaq istəyirlər. Halbuki təkbaşına heç nəyi dəyişmək mümkün olmaz”. Partiya sədri, onu da qeyd edib ki, iqtidar da bu səbəbdən, müxalifətlə əməkdaşlığa və danışıqlara maraq göstərmir: “İqtidar da görür ki, birlik yox, parlaqlıq və aydınlıq yox, məntiq və hikmət yox, geniş əhatə dairəsi olan ziyalı təbəqəsi olan şəxsiyyətlər yox, odur ki, fürsətdən istifadə edib görüşləri öz xeyirlərinə həll edirlər. Və biləndə ki, barışıqlar milli və dövlət maraqlarından kənarda partiya maraqlarındadır, ya aşağılanır, geri çəkilsə sabah cəmiyyət sözünə baxmayacaq, ölkə Suriyanın və İraqın gününə düşəcək”.

Görünən və nəzəri cəlb edən məqamlar ondan ibarətdir ki, müxalif düşərgəni uçuruma sürükləyən, cəmiyyətin gözündən salan, əsasən, AXCP sədri Ə.Kərimlidir. Bunu, sıravi cəbhəçilərlə yanaşı, əksər partiya sədrləri də bilir və dərk edirlər. Problemi həll etmək, müxalif düşərgəni bataqlıqdan çıxarmaq üçün Ə.Kərimlinin siyasətdən getməsini istəyirlər. Bu istək və tələb reallığa çevriləcəkmi? Təbii ki, bunu zaman göstərəcək.

**İ.ƏLİYEV**

# “Düşmən də olsan, çörəyə bais olma!”




## Təhmasib Növruzov: “Qurban çox ustalıqla əsl mahiyyətini gizlətməyi bacaran, yeri gələndə ilan kimi çalaraq heyfini çıxan adamdır”

***Yaxın keçmişdə bir-birinə yaxın olan Qurban Məmmədovla Əli Kərimli bu gün sosial şəbəkələrdə bir-birinə qarşı qarşılıqlı ittihamlar irəli sürürlər. Bu isə, onu deməyə əsas verir ki, keçmiş müttəfiqlər əldə edilən maliyyə vəsaitini bölə bilmədikdə bir-birinə təpik atmağa başlayıblar. “Azadlıq Hərəkatçıları” İctimai Birliyinin sədri Təhmasib Novruzov “Səs” qəzetinə açıqlamasında bildirdi ki, Qurban Məmmədovla Əli Kərimli arasında düşmənçiliyin tarixi AXC-Müsavat hakimiyyəti dövrünə təsadüf edir.***

### “AXC hakimiyyəti dövründə Qurban Məmmədov Baş prokuror olmaq istəyirdi”

“O zaman Q.Məmmədov Baş prokuror olmaq istəmişdi. Ancaq Elçibəyin ətrafındakı qüvvələr, o cümlədən, Ə.Kərimli bu təyinata qarşı çıxmışdı. Ola bilsin ki, quyruq yarası hələ də yaddan çıxmayıb. Çünki Qurban çox ustalıqla əsl mahiyyətini gizlətməyi bacaran, yeri gələndə ilan kimi çalaraq heyfini çıxan adamdır. Ancaq düşünürəm ki, məsələ təkcə bu deyil. Avropa son dönəmdə açıq-aşkar yeni qüvvələr axtarışındadır və Azərbaycan cəmiyyətində Ə.Kərimlinin gücsüz fiqur olduğuna görə, ondan da imtina edir. Yeni qüvvə kimi Q.Məmmədova və onun kimi Avropada oturub, Azərbaycan iqtidarına qara yaxanlara üz tuturlar ki, istər-istəməz Qərb dairələri üçün onlar daha sərfəlidir. Belə olan halda, əlindən tikəsi çıxan Ə.Kərimli ilə, bu tikəni onun əlindən çıxaran Q.Məmmədovun indiki qarşıdurması təbiidir”.

### “Bunlar o kişilərdən deyil”

“Qurban Məmmədovun Əli Kərimliyə qarşı irəli sürdüyü ittihamlarından sonra xaricdəki digər mühacir şəxslər də “Milli Şura”ya qarşı ittihamlar irəli sürməyə başlayıblar. Sizcə, bu cür qarışıq münasibətlərin səbəbi nə ilə bağlıdır” sualına cavab olaraq, T.Novruzov bildirdi ki, təbii ki, səbəb tikə məsələsidir: “Xaricdə oturub, “siyasi mübarizə” aparan adamların hər biri anti-Azərbaycan qüvvələrin maliyyəsindən yetərincə yararlanırlar və bu yararlanma da buradakı “siyasi biznes oyunu”nun iştirakçılarının büdcəsinə ciddi zərər vurur. El arasında bir söz var, düşmən də olsan, çörəyə bais olma! Əlbəttə, bu misal milli dəyərlərin daşıyıcıları olan kişilərə aiddir. Bunlar isə, o kişilərdən deyil. Bir-birinin çörəyinə “uf” deməsdən bais olurlar. Belə də siyasi rəqabət dönür düşmənçiliyə. Nə qədər ki, həmin qüvvələr bir tərəfi qandırıb, digər tərəfi yandıracaqlar, belə qarşıdurmalar da, nəinki səngiməyəcək, artacaq və düşmənçilik səviyyəsinə qalxacaq. Baxın, son aylara kimi xaricdəki qüvvələr Azərbaycanda, məhz “Milli Şura” adlandırılan quruma inam təşviq edirdi. İndi isə bu qurumu müxtəlif formalarda suçlayır və gözdən salmağa çalışırlar. Məncə, bu fakt özü dediklərimizi sübut edir”.

### “Əli Kərimli artıq yorulmuş atdır və ya istifadə olunma müddəti bitmiş əski parçasıdır”

“Meydan” TV-nin rəhbəri olan Emin Milli də boş dayanmayıb və Azərbaycan müxalifətini, xüsusilə də, Ə.Kərimlini qorxaqlıqda günahlandırır. Ümumiyyətlə, sizcə, nəyə görə istər xaricdəki müxaliflər üçün, istərsə də Azərbaycandakı müxalif düşərgə üçün Ə.Kərimli arzuolunmaz şəxsdir” sualına cavab olaraq, T.Novruzov bildirdi ki, Ə.Kərimli artıq yorulmuş atdır və ya istifadə olunma müddəti bitmiş əski parçasıdır: “Məşhur dram əsərində olduğu kimi, yorulmuş atları güllələyirlər. Ancaq güllələmənin demokratik bağırtılara xələl gətirə biləcəyi qorxusu, onları yoranları belə üsullardan istifadə etməyə vadar edir. Bu da, dünənə kimi, arxasında Avropanın bəzi dairələrinin olduğunu bilib, nifrətini içində boğan digər adamlara da içini tökmək üçün münbit şərait yaradıb. Ümumiyyətlə, Ə.Kərimlinin quruculuq, birləşdiricilik deyil, dağıdıcılıq, parçalayıcılıq mövqeyini hər kəs yaxşı bilir. Bu adam AXC kimi Azərbaycanın müstəqilliyi tarixində mühüm rol oynamış bir qurumu, parçalaya-parçalaya elə günə saldı ki, indi o təşkilatın qurucuları və fəalları olmuş adamların əksəriyyəti onun üzvü olduğunu danmağa məcbur olurlar. Ə.Kərimlinin bu xisləti ona keçmiş hərəkatçıların da nifrətinin güclənməsinə səbəb olub. Bütün bunlar bu gün siyasi müxalifət düşərgəsindəki reallıqdır və xalq da bunu görür. Qurban Məmmədov da, Emil Milli də, digərləri də Əlinin bu xislətini gözəl bilirlər və açıq mübarizə olan yerdə onun dilinin qısa olacağını da anlayırlar. Bu da, Qərbin anti-Azərbaycan dairələrinin işinə yarayır”.

**GÜLYANƏ**

# “REAL” partiyası bloklaşmaya gedir

## *Yaxud İlqar Məmmədov kimlə(rlə) anlaşıb?*



***“REAL” hərəkatı, İlqar Məmmədov həbsdə olan müddətdə, partiyaya çevrildikdən sonra, müxalifətin dağıdıcı qanadında müəyyən təlaş tərpənişləri hiss olunmağa başlayıb. Belə ki, “REAL”ın aparıcı fiqurları zaman-zaman heç bir siyasi birliyə və bloka daxil olmayacaqlarını bəyan etsələr də, hazırda əks-istiqamətdə fikirlər ortaya çıxmaqdadır. Eyni zamanda, İ.Məmmədov, xüsusilə, ənənəvi partiyalardan - AXCP-dən və Müsavatdan birgə iş birliyi təklifləri alsa da, onu bu məsələdə razılaşan tərəf kimi görmək də olmaz. Təkcə, bu il keçirilmiş prezident seçkiləri ərəfəsində və sonra keçirilən mitinqlərdə “REAL”ın kənar mövqedə qalması da qeyd edilən fikirləri təsdiqləməkdədir. Çünki istər onun özü, istərsə də təşkilatının funksionerləri dəfələrlə bəyan ediblər ki, köhnəlmiş ideyalarla, nimdaşlaşmış siyasi fəaliyyətlərlə məşğul olan bu kimi partiyalarla əməkdaşlıq səmərədən çox, ziyan vura bilər.***

### Məhz Xədicə İsmayılla ilə ittifaq quraraq, siyasi fəaliyyətini davam etdirmək istəyən İlqar Məmmədov, ən azından, ümidini xarici təşkilatlara bağladığını gizlətmir

Yeri gəlmişkən, “REAL”ın partiyaya çevrilməsi, eyni zamanda, bu təşkilatın maddi vəsait axtarması reallığını ortaya qoyur. Çünki maliyyə olmadan, partiyanın siyasi arenada fəaliyyəti də qeyri-mümkündür. Ona görə də, hazırda bu kimi məsələlərin İ.Məmmədovun gündəmində olması mümkün görünür. Lakin əldə edilən son məlumatlar, həm də belə nəticəyə gəlməyə imkan verir ki, “REAL” sədri, hələlik, fərdi qaydada bloklaşmaya getməyi düşünür. Daha dəqiq desək, “hüquq müdafiəçiləri” qismində çıxış edən bəlli şəxslərlə anlaşmalara gedib, müəyyən maliyyə vəsaitləri əldə etməyi fikirləşir. Bu xüsusda, daha çox X.İsmayılın adı çəkilməkdədir. Məhz onunla ittifaq quraraq, siyasi fəaliyyətini davam etdirmək istəyən İ.Məmmədov ən azından, ümidini xarici təşkilatlara bağladığını gizlətmir. Belə ki, X.İsmayılın Qərbdəki bir sıra anti-Azərbaycan xarakterli, eyni zamanda, erməni lobbisi ilə sıx əlaqələri olan təşkilatlarla münasibətləri mövcuddur. Misal üçün, “siyasi məhbus siyahısı” məsələsində X.İsmayıl, demək olar ki, müxalifətdəki bütün opponentlərini geridə qoymağa nail olub. Belə olan halda, Məmmədovun İsmayıl ilə ittifaqa girməsi ona, necə deyərlər, hava-su kimi lazımdır.

### “REAL”ın AXCP və Müsavat kimi siyasi təşkilatlarla baş-başa gəlməsi reallığı istisna olunmur

Yuxarıda da qeyd edildiyi kimi, “REAL” sədri maliyyə ilə yanaşı, partiyasının düşərgədaxili mövqeyini möhkəmləndirmək üçün də planlar qurur. Ona görə də, onun əməkdaşlıqdan imtina etdiyi AXCP və Müsavat kimi siyasi təşkilatlarla baş-başa gəlməsi reallığı istisna olunmur və bu mübarizədən qalib kimi çıxması üçün möhkəm dəstəyə ehtiyacı var. Bu ehtiyacın X.İsmayıl vasitəsi ilə ödənilməsi isə hər iki şəxsin bir araya gəlməsi ilə nəticələnəcək.

Artıq AXCP cinahından bu ittifaqın pozulması üçün startın verildiyi deyilir və həmin məsələdə müsavatçıların da boş dayanmadıqları bildirilir.

### Əli Kərimli məqam gözləyir, Arif Hacılı isə gizli müşavirə keçirib

Həmin kuluarlarda müəyyən münasibətləri olan mənbədən aldığımız məlumata görə, Ə.Kərimlinin nəzarətində olan sosial şəbəkədəki söyüş qrupları, sadəcə, düyməyə basılmasını gözləyirlər ki, hamılıqla İ.Məmmədov-X.İsmayıl siyasi cütlüyünə qarşı kampaniyaya başlasınlar. Ə.Kərimli isə, hələlik, tələsmir və məqamı gözləyir.

Müsavat partiyasında isə, müəyyən qrup insanın başda Arif Hacılı olmaqla, gizli müşavirə keçirdikləri barədə informasiyalar var. Halbuki Müsavat partiyasına məxsus sayt onun təbliğatını aparırdı. Ancaq İ.Məmmədovun bütün bunlara etinasız yanaşması vəziyyəti kökündən dəyişdirdi. Artıq Müsavat rəhbərliyi də ona qarşı öz kampaniyasını aparmağı planlaşdırır.

Beləliklə, nəticəyə gəlmək olar ki, müxalifətdaxili vəziyyətin gərginləşməsi yenidən başlamaq üzrədir. Xüsusilə, “REAL” partiyası rəhbərliyinin məlum manevrlərə əl atması həmin gərginliyin artmasına səbəb olacaq. Nəzərə alsaq ki, X.İsmayıl da zaman-zaman həm AXCP, həm də Müsavat partiyalarına qarşı sərt ittihamları ilə yadda qalıb, bu zaman gözlənilən hadisələrin bir-birini sürətlə əvəzləyəcəyini bəri başdan ehtimal etmək mümkündür.

**Rövşən RƏSULOV**

# Qərb Əli Kərimlidən niyə imtina edir?

## *AXCP sədrinin “siyasi gücü” tükənib*

***Almaniya Federal Kansleri Angela Merkelin Cənubi Qafqaz turnesi çərçivəsində son dayanacaq olaraq, Azərbaycanı seçməsi və burada bir sıra görüşlər keçirməsi ilə müxalifət düşərgəsində çalxalanma yaşandı. Belə ki, xanım Merkelin özlərini “ana müxalifət liderləri” adlandıran partiya sədrləri ilə, xüsusilə, AXCP sədri Əli Kərimli və s. adamlarla görüşdən imtina etməsi sübut etdi ki, Qərb dağıdıcı xislətli müxalifəti rədd edir və “liderlərdən” hər hansı siyasi perspektivlər gözləmir.***




Görünür, bu baxımdan, alman kanslerin yalnız qeyri-hökumət təşkilatları nümayəndələri ilə görüş keçirməsi cəbhəçilərin sədrini və onun sosial şəbəkədəki söyüş qruplarını əməlli-başlı yerindən oynadıb. Ona görə də, xanım Merkelə qarşı çərçivəyə sığmayacaq dərəcədə ittihamlar səsləndirilir. Halbuki məhz bu səfər öncəsi Ə.Kərimlinin özü və ətrafı belə bir iddialarda bulunurdular ki, Almaniyanın Kansleri rəsmi görüşlərinin ardınca, müxalifət “liderləri” ilə, xüsusilə də, AXCP sədri Ə.Kərimli, “Milli Şura”nın sədri Cəmil Həsənli və digər partiya sədrləri ilə görüşlər keçirib, onları dinləyəcək, Azərbaycanda insan hüquqları və ifadə azadlığı barədə “mənfi fikirlər” irəli sürəcək. Ancaq “sən saydığını say, gör fələk nə sayır” deyilən el sözü burada da öz təsdiqini tapmış oldu.

Yeri gəlmişkən, Merkelin QHT rəhbərləri ilə görüşündə Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin oğlu Turqut Qəmbər, “Azadlıq Radiosu”nun keçmiş əməkdaşı, hazırda özünü “hüquq müdafiəçisi” elan edən Xədicə İsmayıl iştirak ediblər. AXCP sədrini çillədən çıxaran daha bir amil də budur. Çünki o, görüşə qatılmayacağı, yaxud dəvət almayacağı halda, ən azından, oğlu Türkel Kərimlini orada görəcəyinə ümid edirdi. Fəqət, bu da baş vermədi və indi Ə.Kərimli gecəsini-gündüzünə qataraq, Almaniya Kanslerini özünə düşmən elan edir, ona qarşı ən ağır təhqirləri sosial şəbəkədəki söyüş qruplarına yazıdır. Söz yox ki, cəbhəçi sədrin “siyasi gücü” bundan ötəyə getmir və bu “gücün” itdiyi də, artıq özünü açıq-aşkar nümayiş etdirməkdədir.

Digər bir maraqlı məqam isə budur ki, ölkəmizə səfər edən avropalı siyasilər də Azərbaycandakı müxalifət “liderləri” barədə müəyyən məlumatlara malikdirlər. Xüsusilə, Ə.Kərimli haqqında bilgilər alan xarici siyasilər məlumatlıdırlar ki, bu adam günaşırı olaraq, Qərb ölkələrinin səfirliklərinin qapısını açıb-örtməkdən yağır edib. AXCP sədri hər dəfə eyni mövzuları qabardır, pasportunun olmamasını, cinayət törətmiş qaynının həbsdən azad edilməsini tələb kimi ortaya qoyur. Amma bunu da anlamır ki, istər səfirliklər, istərsə də Azərbaycana təşrif buyuran xarici siyasət adamları heç vaxt belə işlərə baş qoşub, ölkəmizin daxili işlərinə qarışmaq istəməzlər. Bu, onların siyasi reputasiyalarına və s. nüfuzlarına zərbə ola bilər. Bunları belə, anlaya bilməyən Kərimli, artıq bütün qapıların onun üzünə bağlandığının fərqinə varmalı və anlamalıdır ki, uzun illərdir sağala bilmədiyi intriqaçılıq, pul hərisliyi xəstəliyi, partiyasında qurduğu “Pinoçet rejimi” Avropanın müəyyən dairələri tərəfindən pislənilir. Həm də, ona görə pislənilir ki, Kərimli özünü Qərbin adamı kimi təqdim etməsinə baxmayaraq, Qərbin maraqlarında olmayan Şimaldan, Şərqdən belə gizli yollarla pullar qoparır, qazandıqlarını isə siyasi təşkilatına deyil, cibinə və ailəsinə xərcləyir. Bütün bunları bilənlər-yaxşı bilir. Ona görə də, xanım Merkelin AXCP sədrinə heç barmaqucu qədər də baxmaması, QHT-lərlə və yuxarıda adları çəkilən bəlli adamlarla ayaqüstü görüş keçirməsi Ə.Kərimlidə ciddi təlaş yaradıb. Bu təlaş isə onun siyasi sonunu daha da yaxınlaşdırıb.

**Rövşən NURƏDDİNOĞLU**

# Avqustun sonunadək hava şəraiti meteohəssas insanlar üçün əlverişli olacaq

Ölkə ərazisində avqustun 30-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 28-33° isti olacaq. Abşeronun şimal çimərliklərində-Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun hərarətinin 24-25°, cənub çimərliklərində-Türkan, Hövsan, Sahil və Şıxda isə 25-26° isti olacağı ehtimalı var. Çimərliklərdə mülayim cənub-şərq küləyinin əsəcəyi bildirilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 30-31-də Abşeron yarımadasında sabit hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.



Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 31-36° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 12-17°, gündüz 21-26° isti olacağı bildirilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 29-34° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 16-21°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Havanın temperaturunun gecə 19-23°, gündüz 28-33° isti, dağlarda gecə 11-16°, gündüz 22-27° isti olacağı gözlənilir. Respublikanın bölgələrində şərq küləyi əsəcək.

# Yusif Vəzir Çəmənzəminli qadın hüquqları haqqında

***Azərbaycanın böyük yazıçı və mütəfəkkirləri içərisində qadınlarımızın tərəqqisi, onların təkamülü və inkişafı prosesinin analizini verməkdə Y.V.Çəmənzəminlinin misilsiz xidmətlərini qeyd etməmək olmaz. Əli İbrahimov yazır: "O, 60 səhifəyə yaxın "Azərbaycanda zərdüşti adətləri", "Tariximiz haqqında Azərbaycan müəlliflərinin əsərləri", "Arvadlarımızın halı", "Ana və analıq", "Qız məktəbi açmalı" və sair elmi-publisist məqalələrində zəngin təfəkkürü, rasional düşüncələri ilə Azərbaycan qadınlarının eramızdan əvvəl və sonrakı, nəhayət, ötən XIX və XX əsrin iyirmi ilində məruz qaldığı məşəqqətləri, onların maarifçiliyin əks-səda şəraitində keçdiyi tədrici təkamülü inkişaf prosesləri ilə bizi tanış edir.***

Pəs, hər kəs öz millətini sevir, onun arvadların tərbiyə və təliminə çalışmalıdır. Onların hüququnu qaytarıb, sərbəstliyini qaytarıb, ağıl və zəkasına meydan verməlidir." "Gender tədqiqatları" əsərinin müəllifləri dərin araşdırmanın nəticəsi kimi qadınları "birinci növ" feminist və "ikinci növ" feminist qadınlar qrupuna bölürlər.

"İkinci növ" feminist qadınlar üçün söylənilən xüsusiyyət əlamətləri daha dəyərli sayılmalıdır. Burada deyilir ki, "qadınlar xüsusi keyfiyyət və qabiliyyətə malikdirlər: səciyyəvi qadın düşüncə tərzi kişi təfəkkürünə nisbətən daha intuitivdir, emosional cəhətdən daha səmimidir, daha qurucu və genişdir. O, kişilərin elmi, rasional, məntiqi, analitik düşüncə tərzinə tam qiymətin alternatividir. Feminizmin bu kimi qadın xüsusiyyətlərinin əsl qiymətinin cəmiyyət tərəfindən tanınmasına nail olmaq əsas məqsəddir".

Y.V.Çəmənzəminlinin dünyagörüşündə də, məhz "ikinci növ" feminist qadınlar üçün söylənilən xüsusiyyətlərə daha böyük üstünlük verilməsi hiss olunur, "Arvad əziz məxluqdur" deyəndə, o, birinci növbədə, qadının cəmiyyət üçün daşıdığı vəzifəyə vicdanlı münasibətini nəzərdə tutur. Uşağa qaldığı andan körpəsinin dünyaya göz açdığı ana qədər, körpəsinin qundaqdakı dövründən ayaq açan günə qədər, ayaq açıb gəzişdiyi gündən boya-başa çatdığı, ərsə yetdiyi günlərə kimi anaların məşəqqəti davam edir, balalarının salamatlığı yolunda öz istirahət və rahatlıqlarından əl çəkirlər. Hər bir ictimai-siyasi dövrün tələblərinə uyğun olaraq, övladının xoşbəxtliyi naminə cavab verməyə birinci addım atan da anadır. Qadınların tərbiyə sahəsində bu qədər yüklənməsinə laqeyd yanaşmaq, insanlığın ekologiyasına zərbə vurmaqdır.

Yusif Vəzirə görə, "Analar böyük vəzifələrini ifa etdikdə, heç bir əvəz almaq fikrində olmamışlar. Çünki əvəz adi insan arasında, xüsusi işlərdə olar. Analıq isə xüsusilikdən çox uzaqdır. Analıq o qədər ucadır ki, öz-özlüyündə elə bir müvəffəqiyyətdir ki, ona nail olmağa biz kişilər layiq olmamışıq. Bu imtiyaz təkcə arvadlara verilib". Müəllifin fikrincə, ana fədakarlığı, ana məhəbbəti qarşısında heç bir qüvvə dayana bilməz. Bu məhəbbət, bu fədakarlıq o qədər sonsuzdur ki, ən güclü maqnit sahəsi də bunun yanında heç nədir. "Buz heykəl" əsərinin müəllifi Ənvər Məmmədxanlıya böyük şöhrət qazandıran da ananın tuncdan yox, buzdan tökülmüş heykəlini yaratmaq olmuşdur.

"Ana və analıq" kitabının 8-ci bölməsində Yusif Vəzir elmli və elmsiz qadınları müqayisə edir, maarif, elm işığı ilə ağlını nurlandırmış kamil və bilikli qadınlara üstünlük verir: "Elmsiz arvad ərinə həmişə yad olar, əri bacardıqca evdən uzaq dolanar. Hərgah arvadlar oxumuş və məlumatlı olsalar, kişilərinin ruhani aləminə də, təsir edib onu evə cəlb eləyərlər".

Yusif Vəzir fikirlərini əsaslandırmaq üçün alman alimi Fridrix Nitsşenin nikah haqqında söylədikləri ilə qadınlarımızı ayıq olmağa, onları "qəflətdən" ayılıb, hüququnu dərk etməyə çağırır. Filosof deyir: "Əqd-nikah vaxtında özünüzə sual verin, görün evləndiyiniz arvadla lap qocalanadək söhbət etməyə qadir ola biləcəksinizmi? Çünki nikahda her şey ötəri olur və vaxtın çoxunu söhbət məşğul eləyir".

Yusif Vəzirin anlamında "Allah" deyilən qeyri-maddi bir varlıq var ki, o, təbiətdə hər şeyə, hər bir hadisəyə "etidali-dəmlə zaman bərabərliyi)" ilə yanaşır. Bu bərabərlik bütün məqamlarda gözlənilməlidir. Bütün dünya üzrə götürdükdə, qadınlar kişilərdən sayca o qədər də çox deyil. Lakin birinin öz geniş maddi imkanına görə bir neçə qadına evlənməsi tarazlığın pozulmasıdır. Bundan hər cür "ziddiyyət, müqayisə, narazılıq" törəyə bilər ki, bu da sonda fəlakətlə nəticələnir. "Arvadlar elmli gərək olsunlar" deyəndə, Yusif Vəzir bunu ailənin möhkəmliyi üçün, zəruri hesab edirdi. Savadlı qadınla savadsız qadın bir ola bilməz. Ağıl çoxunda ola bilər, amma savad, təhsil hamıya müyəssər olmur. Kütləvi hal alan icbari təhsildə ictimai-siyasi həyatımızın müxtəlif dövrlərindən asılı olaraq, heç də bütün qadınların iştirakı, onların məktəblərə cəlb olunması baş tutmayıb. Bunun ucbatından "aşkar olur ki, oxumuş ərlə oxumamış arvadınkı tutmur". Oxumuş bir "söhbət elədikdə, arvad onu düşünməyəcək" avam arvadla böhtan, qeybət və bunun kimi boş şeylərdən savayı söhbətlər eləmək olmur. Həmçinin, savadsız kişinin də dostluğu savadsız arvadla başa getmir. Çünki kişi asudə gəzib- dolandığına görə, özünə təcrübə və bilik qazanır, savadsız arvad isə heç yerə çıxa bilməyib evdə oturmaqla, bildiyini də itirir. Deməli, tərəzinin bir gözü həmişə yuxarıda qalır, o birisi aşağıda. Ərarvad tərəzisi həmvəzn (eyni çəkidə) gərək olsun".

Ə.İbrahimov qeyd edir ki, tərəzinin hər iki gözünün etidalda olması valideynlərin bərabərhüquqlu, cəmiyyətin bərabər imtiyazlı vətəndaşları kimi fəaliyyətləri üçün geniş meydan açır. Qadınlar arasında "avamlıqları aradan götürməyə nizamlı geniş proqramlı qız məktəbləri lazımdır. Məktəbdə qeyri-elm və fənlərdən savayı pedaqogikaya, hifzi-səhhətə, fiziologiyaya, kimyaya, gimnastikaya diqqət olunmalıdır".

Y.V.Çəmənzəminlinin "Ana və analıq" kitabındakı geniş proqramşəkilli müddəalar artıq reallaşmış, savad, təhsil və elm cəmiyyətin hər bir vətəndaşının daxili tələbatına çevrilmiş, kişi- qadın arasında bərabərhüquqlu münasibətlərin tənzimlənməsi istiqamətində xeyli iş görülmüşdür.

Müasir Azərbaycan həyatında sonsuzluğa doğru gedən qadın problemləri. Qadın işsizliyi, doğum evlərindəki yalnız imkanlara normal xidmətin, körpələrə, uşaqlara yalnız pullu peyvəndlərin göstərilməsi, ən aşağı müavinətlərin verilməsi, dərmanların getdikcə bahalaşması halları "Gender tematikası" üzrə gedən bəzi müsbət irəliləyişlərimizi ləngidir.

Daşqın Rəcəbli və Xanımgül Məmmədova yazırlar: "Fikrimizcə, Çəmənzəminlinin əsərləri də bu baxımdan diqqətəlayiq hesab edilə bilər. Onun qadın probleminə yeni, özünəməxsus istiqamətdən yanaşması olmuşdur. Qədim dövrlərdən başlayaraq, XX əsrin əvvəllərinə kimi, istər Şərqdə, istərsə də Qərbdə qadına münasibət haqqında məlumatı böyük ədib və diplomat Yusif Vəzir Çəmənzəminlinin əsərlərindən ala bilərik. O, ali məktəbdə oxuduğu illərdə və sonrakı dövrlərdə qadın azadlığı məsələsinə həsr olunmuş bir çox əsərlərin - "Divanə", "Dərdli Züleyxa", "Yuxu", "Hərrac" adlı hekayələrin, eləcə də, "Arvadlarımızın halı", "Ana və analıq", "Qız məktəbi açmalı" başlıqlı məqalələrin müəllifidir. "Arvadlarımızın halı" məqaləsində ədib yaxın keçmişimizə qədər svilizasiyanın beşiyi sayılan Qədim Roma və Yunanıstanda qadına münasibəti nəzərdən keçirərək qeyd edir ki, Qədim Romada "kişi arvadı üzərində həqiqi həyata və məmata malik idi. Onu tənbeh edə bilərdi, istəsə, onu öldürərdi və hətta satmağa ixtiyarı var idi". Daha sonra Qədim Yunanıstanda da qadına alçaldıcı münasibətin mövcudluğu, hətta böyük Ərəstunun (Aristotelinin) qadını "təbiətin səhvi" adlandırdığı qeyd olunur. Bu, miladdan öncə, Qərbin qadına münasibətidir. Miladdan sonra, baxmayaraq ki, "İncili-Şərif" qadının mövqeyini ucaltdı, xristianlıq onu alçaltdı və kilsənin əmrilə bir əsr müddətində qadın tonqalda yandırıldı. Eyni cümləni, biz islamda qadına münasibətə tətbiq edərək, deyə bilərik ki, "Qurani-Kərim" qadını ucaltdısa da, fırıldaqçı din xadimləri, mövhumat onu tənqid edir, amma bu işdə islamı deyil, onun təbliğatçılarını günahlandırırdı.

Qadın taleyini tədqiq edən Çəmənzəminli cəmiyyətdəki bütün problemləri qadının vəziyyəti ilə bağlayırdı. Yusif Vəzir Çəmənzəminli "Arvadlarımızın halı" məqaləsində, hətta millətin geriliyinin səbəbini də qadın hüquqsuzluğu ilə bağlayır: "Məgər arvadlarımızın bu halı millətimizin geridə qalmağına böyük bir səbəb deyil? Məgər arvadların tənəzzülü millətin tənəzzülü deyil? Hükəma dəfələrlə təkrar edibdir ki, hər millətin arvadlarının vəziyyəti o millətin mədəniyyət dərəcəsinin ölçüsüdür. Yəni nə qədər arvad mədəni olsa, nə qədər onun elm-təhsili mükəmməl, ağıl dairəsi geniş, əri ilə hüquq və ixtiyaratda müsavi olsa, bir o qədər arvad tərbiyəli övlad bəsləməyə müqtədir olar. Tərbiyəli övladlardan da gələcəkdə tərbiyəli və fəali adamlar millət xidmətində olarlar".

Böyük sənətkar qadın məsələsinə həsr etdiyi "Ana və analıq" başlıqlı "Arvad əziz məxluqdur", "Analıq hissi müqəddəsdir", "Ərvadlara hörmət edilməlidir", "Arvada ixtiyar verilməlidir", "Analıq", "Evdar arvad", "Arvadlar elmli gərək olsunlar", "Anasız uşaqlar", "Analı yetimlər", "Analı uşaqlar", "Həqiqi ana" silsilə məqalələrində qadın hüquqsuzluğunun törətdiyi fəsadlardan danışır və qadınlara bərabər hüquqların verilməsinin vacibliyini vurğulayır. "Arvadlara ixtiyar verilsə, işlər tamam dəyişilər. Elm aramızda yayılar və onun işığında diriliyimiz də asanlaşar. İxtiyarlı arvad özünü xoşbəxt edən kimi özgələrinin də xoşbəxtliyinə bais ola bilər. Hüquqa malik qadın isə kişiyə dərd və qəm yoldaşıdır". Belə xanımlara misal olaraq, o, Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşiri və Həsənbəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın fəaliyyətini qeyd edir."

Müəlliflərin qeyd etdikləri kimi, Y.V.Çəmənzəminli analığı qadının müqəddəs vəzifəsi hesab edir. Onun fikrincə, ana Tanrının fikirlərinin vasitəsidir. Çünki analıq təkcə övlad dünyaya gətirməkdən ibarət deyil, ana övladına tərbiyə verir, pisi və yaxşını başa salır, balasının salamatlığından ötrü canını əsirgəmir. Ana fədakarlıq deməkdir. Gözəl və həssas bir qəlbə malik olan sənətkar analığın ən ümdə xüsusiyyətlərindən biri kimi aşağıdakıları qeyd edir. "Analar böyük vəzifələrini icra etdikdə, heç bir əvəz almaq fikrində olmurlar. Çünki əvəz adi insan arasında, xüsusi işlərdə olar. Analıq isə xüsusilikdən çox uzaqdır. Analıq o qədər ucadır ki, öz-özlüyündə elə bir müvəffəqiyyətdir ki, ona nail olmağa biz kişilər layiq olmamışıq. Bu imtiyaz təkcə ər-vadlara verilib".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Psixoloqa müraciət edənlərin sayı niyə artır?

***Statistika göstərir ki, son on ildə psixoloqa müraciət edənlərin sayı artıb. Əvvəllər daha çox uşaqlarla bağlı müraciətlər olurdusa, son vaxtlar 60-70 yaşlılar arasında da psixoloqlara üz tutanlar az deyil. AZƏRTAC xəbər verir ki, psixoloqların dediyinə görə, son illər ailə terapiyaları da aktivləşib. Problemin mahiyyəti isə müxtəlifdir. Uşaqlarda əqli gerilik və pis vərdişlərin sayı üstünlük təşkil edir. Valideynlər 3-6 yaşlı uşaqlarda həmin problemlərlə daha çox üzləşirlər.***



Belə ki, uşaqların psixikasının formalaşmasında ilk altı il xüsusi əhəmiyyət daşıyır. Həmin dövrdə autizm, Daun sindromu, əqli və inkişaf ləngimələri ilə əlaqədar, həmçinin dırnaq yemə, hiporeaktivlik, utancaqlıq, özünə qapanma və aqressiya kimi problemlərlə bağlı müraciətlər olur.

Yeniyetmələr isə daha çox yaddaşın gücləndirilməsi, diqqətin bir məsələyə cəm edilməsi ilə əlaqədar psixoloq köməyinə ehtiyac duyurlar. Orta yaşlılar arasında isə əsasən əsəb, stress, ailədaxili problemlər, xəyanət, qaynana-gəlin qarşıdurması daha çox üstünlük təşkil edir. Lakin bununla belə bəzən psixoloqa üz tutarkən ictimai rəydən ehtiyat edənlər də olur. Halbuki psixoloqlar danışıq və müəyyən psixoterapiya üsulları xəstənin özünün həmin problemləri həll etməsinə kömək edir.

## Duzun normadan azca artıq olması heç də zərərli deyil



Duzun insan orqanizminə mənfi təsir göstərdiyi məlumdur. Natrium-xlor birləşməsi əksər hallarda mayenin bədəndə qalmasına və arterial təzyiqin yüksəlməsinə səbəb olur. AZƏRTAC xəbər verir ki, Kanada alimləri duzdan orta miqdarda istifadənin ürək-damar sistemi üçün faydalı ola biləcəyini iddia edirlər. Mütəxəssislərin fikrincə, duzun gündəlik miqdarı Dünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi beş qramdan artıq olsa da, onun ziyanı yoxdur. Elm adamları bu fikrə dünyanın 21 ölkəsindən olan 94 min nəfərdən artıq insan üzərində aparılan tədqiqatın nəticəsində gəliblər. Rasionda duz çatışmazlığı isə infarkt təhlükəsi yaradır.


### ELAN

**12 oktyabr 2018-ci il tarixdə "Şirvan Sənaye Kombinatı-2" ASC-nin səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. İclas Şirvan şəhəri, M.Mirzəyev küçəsi, 8 ünvanda, saat 10.00-da keçiriləcəkdir. İclasın gündəliyi və müvafiq sənədlərlə həmin ünvanda tanış olmaq olar.**

***"Şirvan Sənaye Kombinatı-2" ASC-nin idarə heyəti***

* * *

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Rüstəmova Aynur Hüseynəli qızının adına 2012-ci ildə verilmiş 188 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.**

* * *

**Bakı şəhəri 285 saylı tam orta məktəbi tərəfindən Qasımova Gülnar Əlövsət qızının adına verilmiş attestat və şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**


## UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanan üç komandanın adı müəyyənləşib



Avqustun 28-də UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanan ilk üç iştirakçının adı bəlli olub. AZƏRTAC xəbər verir ki, səfərdə Macarıstanın "Vidi" klubuna 2:1 hesabı ilə qalib gələn Yunanıstan təmsilçisi AEK doğma meydanda ilk oyunda əldə etdiyi üstünlüyünü qoruya bilib. Qarşılaşma 1:1 hesablı heç-heçə ilə başa çatıb və iki oyunun nəticəsinə görə AEK Avropanın ən nüfuzlu klub turnirinin qrup mərhələsinə yüksəlib. Səfərdə "Yanq Boyz" klubu ilə heç-heçə edən Xorvatiyanın "Dinamo Zaqreb" klubu doğma meydanda 2:1 hesabı ilə məğlub olaraq Çempionlar Liqasında mübarizəni dayandırıb.

Günün üçüncü qarşılaşması isə Ukraynanın "Olimpiyski" stadionunda "Dinamo Kiyev" və Hollandiyanın "Ayaks" klubları arasında baş tutub. Görüş qolsuz heç-heçə ilə başa çatıb. Hollandiya təmsilçisi iki oyun nəticəsinə əsasən qrup mərhələsinə vəsiqə qazanıb. Qeyd edək, Çempionlar Liqasının play-off mərhələsində məğlub olan klublar ("Vidi", "Dinamo Kiyev", "Dinamo Zaqreb") UEFA Avropa Liqasının qrup mərhələsində mübarizə aparacaqlar.



## Şahmatçılarımız dünya çempionatında iştirak edəcəklər

Sentyabrın 4-dən 15-dək Türkiyənin Qəbzə şəhərində yaşı 20-dək oğlan və qızlar - yuniorlar arasında şahmat üzrə dünya çempionatı keçiriləcək. Turnirin rəsmi saytında yer alan məlumata görə, yarışlarda 65 ölkədən 260-dan çox şahmatçı iştirak edəcək. Hazırda iştirakçıların siyahısında Azərbaycanın 10 şahmatçısı qeydə alınıb. Maqomed Muradlı, Nail Bəşirli, Xəzər Babazadə, Ülvi Sadıqov, Vüqar Əsədli, Məhəmməd İsmayılov, Kənan Qarayev, Aytac Heydərova, Aydan Höcətova və Gövhər Beydullayeva qalib yerlər uğrunda mübarizə aparacaqlar. Yarışlar İsveçrə sistemi üzrə 11 turda keçiriləcək.

## "Messiyə mənim məsləhətim lazım deyil"



"Barselona" çox güclü görünür. Bu komandada futbolçuların seçimi əla təşkil olunub. Yayda rəhbərlik həm gənc, həm də təcrübəli futbolçuları heyətə cəlb edib. İnanıram ki, komanda mövsümün sonuna qədər bütün turnirlərdə iddiasını qoruyacaq".

Qol.az-ın məlumatına görə, bu sözləri "Barselona"nın sabiq futbolçusu Andres İnyesta İspaniya mətbuatına açıqlamasında deyib. Hazırda Yaponiyanın "Kobe" klubunda çıxış edən 34 yaşlı yarımmüdafiəçi Kataloniya klubundan ayrılarkən kapitanlıq sarğısını verdiyi Lionel Messinin liderlik keyifyyətlərindən danışıb: "Messi həmişə kapitan statusunda fəaliyyət göstərir. Hətta meydana kapitan sarğısı ilə çıxmayanda da. Messi komandanı necə idarə edəcəyini yaxşı bilir. Ona mənim məsləhətim lazım deyil".

## "Qarabağ" - "Şerif" matçını makedoniyalı hakimlər briqadası idarə edəcək




Avqustun 30-da Bakıda, Tofiq Bəhramov adına stadionunda Avropa Liqasının pley-off raundunda Azərbaycanın "Qarabağ" və Moldovanın "Şerif" komandaları arasında cavab matçı keçiriləcək. Cavab matçını makedoniyalı hakimlər briqadası idarə edəcək. Bu görüşün baş hakimi makedoniyalı Aleksandr Stavrev olacaq. Ona Maryan Kirovski, Deyan Kostandinov və Dimitar Mekarovski kömək edəcəklər. Xatırladaq ki, görüş Bakı vaxtilə saat 21:00-da başlanacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**